

# Azərbaycan Rusiyaya nota verdi

*Rusiya Federasiyası Dövlət Dumasının İnformasiya siyasəti, informasiya texnologiyaları və rabitə komitəsinin sədr müavini Oleq Matveyçevin "RUSARMİNFO" erməni xəbər agentliyinin efirində səsləndirdiyi bəyanatları ilə əlaqədar Azərbaycanın Rusiyadakı Səfirliyi tərəfindən Rusiya XİN-ə etiraz...*

Səh.3


# UNİKAL

№15 (2149) 21 aprel 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




# Samir Şərifova Vüsal Kərimli şoku

## BNA-nın fəaliyyətinə xitam verilməsi maliyyə nazirini niyə məyus edib?

*Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyev "Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalayıb. Fərmana əsasən, Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edilməsi, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib.*

Səh.7



Səh.9

# Qarabağda yaşayan ermənilər üçün yeganə yol: "Ya qəbul edin, ya da gedin"

# "Vəziyyət kifayət qədər gərgindir"



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Ermənistanda olan revanşist qüvvələrin yenidən baş qaldırmaq istəməsindən, Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının hansı mərhələdə olmasından, İran-Azərbaycan münasibətlərinin hazırkı durumundan və başqa məsələlərdən danışıb.*

Səh.4

# İnam Kərimov yeni layihəyə start verdi



*"Məhkəmələrin müasir tələblərlə uyğun qurulması, idarəetmədə innovativ texnologiyaların tətbiqi günün tələblərindəndir. Bu tələbləri qarşılamaq üçün məhkəmə-hüquq sisteminin bütün iştirakçıları ilə dialoq qurmağa xidmət edən yeni bir layihəyə - "Femida Dialoq Platforması" layihəsinə start vermişik".*

Səh.7

# Düşmən öz simasını yenə göstərdi



*Ermənistanın hava şəraitinə görə yolunu azan iki hərbiçimizə işgəncə verməsi artıq beynəlxalq ictimaiyyət tərəfindən də qınanılmaqdadır. ABŞ Ermənistanda saxlanılan Azərbaycan əsgərinə qarşı törədilmiş zorakılıqla bağlı narahatçılığını bildirib. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyinin tvitində deyilir.*

Səh.11

# Məşhur müğənnilərin orucluqdan sonra toy qiymətləri - SİYAHI



***Orucluqdan sonra şadlıq evlərində menyunun bahalaşacağı bildirilir. Artıq bir neçə gündən sonra toylar başlayır. Yeni qiymətlər olacaq.***

Bəs məşhur müğənnilər necə, toy qiymətinə yenidən baxacaqlarmı? Milli.Az xəbər verir ki, məsələ ilə bağlı Globalinfo.az ifaçılar arasında sorğu keçirib.

Xalq artisti Bilal Əliyev deyib ki, ölkədə yalnız şadlıq saraylarında deyil, ümumiyyətlə hər yerdə qiymət artımı müşahidə olunur:

"Hələ şadlıq evlərindəki qiymət artımı ilə bağlı heç bir məlumatım yoxdur. Belə düşünürəm ki, əgər menyu bahalaşsa, biz də şadlıq evinin rəhbərləri ilə danışıqlarımız zamanı xahiş edəcəyik ki, bizim də qonorarımızı bir balaca artırsın. Əvvəl çox qazanıb az işləyirdiksə, indi çalışacağıq ki, çox işləyib, çox qazana bilək".

Əməkdar artist Nigar Şabanova da məbləği artırmayacağını bildirib: "Camaatın evini yıxa bilmərəm. Allahından şadlıq sarayları qiyməti o qədər qaldırıb ki, müğənniyə qonorarı artırmağa yer qalmır. Toy sahibi bilmir qızıl, paltar, cehiz və ya ev alsın, balasına normal toy edib xonça tuta bilsin yoxsa, toydan qalan pulu şadlıq evinə verib getsin. Camaatın nəfəsini kəsmək olmaz. Qiyməti artırmağı düşünmürəm".

Manaf Ağayev də bahalıq mövzusunda fikirlərini Globalinfo.az-la bölüşüb: "Qiymət artırmaq bizə aid deyil. Yaxşı adamın toyuna təmənnasız gedirik, dostumuzdan pul almırıq, imkanı olmayanlara kömək edirik. Ona görə də, məndə standart qiymət olmur. Həm də baxır toyu mənimlə kimin danışmağına. Kasıb birinə necə böyük məbləğ deyə bilərəm?!"

Xalq artisti Eyyub Yaqubov da bahalı müğənnilərdəndir. Amma o, bu mövzuda danışarkən bunları deyib: "Xeyr, qonorarı artırmaq fikrimiz yoxdur. Standart olaraq qalacaq".

Müğənni Vasif Məhərrəmli də qiymətə yenidən baxmayacağını deyib: "Mənim heç bir qiymət artımından xəbərim yoxdur. Aldığım məbləğ stabil olaraq qalır".

Toy biznesində özünəməxsus yeri olan müğənni Mətanət Əsədova: "Düzü bu işlərə mən baxmıram. Mənim işlərimi həll edən adamlar var. Hələ baxacağıq".

# Təranə Səmədovanın cinayət işinin bəzi detalları bəlli olub

***Bakıda hədə-qorxu ilə tələb etmədə təqsirləndirilən prodüser Təranə Səmədova və onun həyat yoldaşı Rasim Həsənovun cinayət işinin bəzi detalları məlum olub.***

"Unikal" "Report"a istinadən xəbər verir ki, istintaq materiallarında qeyd olunub ki, onlar qabaqcadan əlbir olaraq hədə-qorxu gələrək vətəndaşdan pul tələb ediblər.

Aparılan istintaq zamanı müəyyən olunub ki, T.Səmədova qeyri-rəsmi ər-arvad kimi yaşadığı R.Həsənovla birgə Altay Səfirovun (ad, soyadı şərtidir) fotoşəkillərini əldə edib. Daha sonra həmin şəxslər fotoşəkilləri Altayın ailə üzvlərinə göstərməklə, yaşadığı məhəllədə yaymaqla, o, cümlədən instaqram və digər sosial şəbəkələrində yerləşdirməklə hədələyib. Bu yolla T.Səmədovla R.Həsənov ondan 3 min manat tələb edib.



Beləliklə, ötən ilin noyabrında onlar zərərçəkmiş şəxsdən ümumilikdə 1 100 ABŞ dolları məbləğində pulu hədə-qorxu ilə tələb edərək ələ keçiriblər.

Bundan başqa, T.Səmədova ilə R.Həsənov təkrarən Altay Səfirovu rüsvayedici fotoşəkillərlə şantaj edərək ondan 1 000 manat pul tələb ediblər. Lakin zərərçəkmiş onlara 130 manat pul verib.

Qeyd edək ki, T.Səmədova və R.Həsənov barəsində Cinayət Məcəlləsinin 182.2.1-ci (hədə-qorxu ilə tələb etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə ittiham irəli sürülüb, məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbinə Məmmədzadənin sədrliyi ilə araşdırılır.



# Cavanşir Məmmədov müğənnini ARB rəhbərinə şikayət edib

***"İbrahim Tatlısəsin 9 təyyarə, 20 avtobusu var. Cavanşir Məmmədov 53 ildir sənətdədir. Bu ildə mənim bir maşınım, evim, üzüyüm, saatım olmasın?".***

Bu sözləri Əməkdar artist Cavanşir Məmmədov "Səhər mərkəzi" verilişində deyib. Müğənni avtomobilini nümayiş etdirməsini tənqid edənlərə cavab verib.

C.Məmmədov daha sonra ARB TV-də yayımlanan "Xəbər-ətər" verilişində qonaq olan ifaçıdan gileylənib. O bildirib ki, ifaçını kanal rəhbərliyinə şikayət edib:

"Bir neçə gün əvvəl ARB TV-də Zümrüdün verilişinə cavan oğlan çıxıb. Gəncdir, yaxşı oxuyur, amma əla yox. Xan olmağına xansan, amma çox xamsan. Hələ sözlər dilinə yatmır, bişmir. Ayağını necə aşırdıb ayağının üstünə oturubsa, əlini də açıb. Ayağı az qalıb aparıcının ağzına dəysin. Əsəbdən bədənim əsdi, yemək boğazımda qaldı. Aparıcını, kanal rəhbərini yığdım. Prodüseri yığdım ki, ona deyin düzəltsin özünü. Nə Müslüm Maqomayev, nə Akif İslamzadə, nə Polad Bülbüloğlu elə oturmayıb. Mədəniyyət adamı nümunədir. 200 min, 200 milyon baxışın ola bilər, bu, məsələni həll etmir. Səhər televiziyaya baxıb dincəlməliyəm. İşığa pul ödəyirəm, niyə əsəbiləşim?".

Qeyd edək ki, C.Məmmədov ifaçının adını açıqlamayıb. Amma Zümrüd Bədəlovanın proqramında son günlərdə qonaq qismində yer alan gənc oğlan ifaçı Elvin Babazadə olub.

# "Bizi bir araya toplamırdılar ki, dərdimizi danışaq" - Rasim Balayev

***Xalq artisti Rasim Balayev "Azərbaycan Kinosu - 125: Reallıq, Çağırışlar və Hədəflər" mövzusunda keçirilən Kino forumunda çıxış edib.***



Axşam.az xəbər verir ki, aktyor Mədəniyyət Nazirliyinə müraciət edib. O bildirib ki, bu sahədə olan insanlar xaricə təhsil almağa göndərilməlidir: "İldə çox yox, heç olmasa 4 kino adamı təhsil üçün xarici ölkəyə göndərilsin. Milli filmlər çəkilməlidir, dramaturqlar yetişdirilməlidir".

R.Balayev yaradılması planlaşdırılan Kino Agentliyindən söz açıb: "Mən ora seçilmək istəmirəm. Amma çox xahiş edirəm, oraya ölkəsini sevən, kinonu bilən şəxslər toplasınlar".

Aktyor daha sonra kino sahəsində olan problemlərdən bəhs edib: "Bu günə kimi bizi bir araya toplamırdılar ki, dərdimizi danışaq. Heydər Əliyevin bütün tarixi filmlərin çəkilişində əməyi var. Allah rəhmət eləsin. Film sahəsinin inkişaf etdirilməsi üçün təkliflərim var: Bu sahə özünü tutana kimi, maliyyə yardımı olmalıdır. Maddi dəstək verilməlidir ki, bu sahə qalxsın. Digər tərəfdən isə, o vaxtlar gəncləri tanımaq üçün "debüt" var idi. Sonra onlara böyük işlər verilirdi. İndi də olmalıdır. Sovet birliyinin pis-yaxşı strukturu var idi, dağıldı getdi. 6 il ümumiyyətlə film çəkilmədi. 5-6 yaxşı rejissorumuz var. Amma bu azdır, onlar da yaşlanır. Mədəniyyət və İncəsənət Universitetinin üstünə kölgə salmaq istəmirəm. Əvvəl Moskva Dövlət Kinomatoqrafiya İnstitutunda bizə yer verirdilər. Mənə elə gəlir ki, aktyoru bizim rejissorlar düzəldə bilər. Amma əsas kinonun rejissoru, ssenarisidir. Təklif edirəm müsabiqə keçirilsin. İldə 1 dəfə hər sahə üzrə mütəxəssis ora göndərilsin".



## "Tarix fənni maraqlı olmalıdır ki, şagirdlər oxusun" - Nazir

***Tarix fənni ilə bağlı metodik yanaşmalar dəyişməlidir. "Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Heydər Əliyev ili" çərçivəsində Ümumdünya Kitab və Müəllifik Hüququ Günü münasibətilə "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan - Türk torpaqları olan Zəngəzur həqiqətləri" mövzusunda konfransda deyib.***

Nazir xatırladıb ki, Azərbaycan orta təhsil sistemində tarix fənni 5-ci sinifdən keçirilir. Hazırda Qarabağ tarixi 8-ci sinifdən başlayaraq tədris edilir, eyni zamanda Vətən müharibəsindən sonra Zəfər tarixi tədris olunur, lakin Zəfər tariximiz elə bir mövzudur ki, hər il yenilənir və bundan sonra da yenilənərək davam edəcək.

E.Əmrulayev bildirib ki, Azərbaycan dərsliklərindəki tarixə aid mətnlər kifayət qədər mürəkkəbdir. "Biz təhsili tənzimləyirik, biz müəlliflərin yazdığının içərisindən ən yaxşısını seçirik. Biz çalışmalıyıq ki, mətnlər uşaqlar üçün aydın və anlaşılan olsun", - deyə nazir bildirib.

O vurğulayıb ki, tarix fənni ilə bağlı metodik yanaşmalar dəyişməlidir. "Tarix fənni maraqlı olmalıdır ki, şagirdlər oxusun. Yeni texnologiyalar yeni məzmun gətirb və bunu nəzərə alaraq zəruri olan məzmunu uşaqlara çatdırmalıyıq. Elə etməliyik ki, bu məzmun maraqlı və uşaqları həvəslendirən olsun", - deyə nazir əlavə edib.

## Fazil Mustafa partiyasını evdən idarə edir

***Bir müddət əvvəl terror hücumuna məruz qalmış deputat Fazil Musatafa rəhbərlik etdiyi Böyük Quruluş Partiyasının (BQP) fəaliyyətini evdən idarə edir.***

Bu barədə Modern.az-a deputatın özü məlumat verib. Fazil Mustafa bildirib ki, bir çox məsələləri telefon vasitəsilə həll edir: "Seçicilərlə görüşü onlayn formatda təşkil etməyə hazırlaşıram. Önümüzdəki həftədən bu formatda görüşlərə başlayacağıq".

Məlum olduğu kimi, yeni siyasi partiyalar haqqında qanuna əsasən, 5000-dən az üzvü olan partiyaların fəaliyyəti Ədliyyə Nazirliyi tərəfindən dayandırılacaq. Bəs, Böyük Quruluş Partiyası bu tələbi yerinə yetiribmi?

Deputat deyir ki, rəhbərlik etdiyi BQP artıq 5000 üzvün siyahısını hazırlayıb: "Bizim partiyanın, əlbəttə, 5000 üzvü var. Bizdə siyahı yekunlaşıb. Hazırda son yoxlamalar aparılır. Üzvlərin məlumatlarını düzəldirik ki, sonra səhvlik olmasın. Yaxın zamanlarda siyahı təqdim olunacaq".

Qeyd edək ki, martın 28-də F.Mustafaya qarşı yaşadığı evin qarşısında "Kalaşnikov" avtomat silahından atəş açılaraq terror aktı törədilib. F.Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilib.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277-ci (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb.

Hadisədən bir neçə gün sonra keçirilən xüsusi əməliyyat nəticəsində terror aktını törətməkdə şübhəli bilinən şəxslər müəyyən edilərək saxlanılıb.

# Səlim Müslümovun "inadı qırıldı"

## Sabiq nazirlə bağlı 6 milyon manatlıq müəmma ortadan qalxır

***Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun yola salmaq üzrə olduğumuz həftəyə təyin olunmuş məhkəmə prosesi təxirə salınıb. Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesin təxirə salınmasına səbəb vəkillərin vəsatətlə müraciət etməsi olub. Prosesə sədrlik edən hakim Faiq Qəniyev deyib ki, Səlim Müslümovun işindən ayrılmış israfetmə epizodu üzrə dəymiş ziyanın ödənilməsi ilə bağlı müvafiq işlər görülür. Ziyanın tam ödənilməsi üçün görülən işlərin tamamlanması məqsədilə müdafiə tərəfinə vaxt verilməsi qərara alınıb.***

Xatırladaq ki, bu ilin yanvarında keçirilən məhkəmə iclasında hakim cinayət işi üzrə dəymiş 20 milyon manat məbləğində ziyanın təqsirləndirilən şəxs - yəni, sabiq nazir tərəfindən tam ödənildiyini demişdi.



Bəs indi hansı "ziyanın tam ödənilməsindən" gedir?

"Unikal"ın araşdırmasına görə, böyük ehtimalla söhbət 6 milyon manatdan gedir. Bu, israfetmə nəticəsində vurulmuş ziyandır. Həmin əməllərlə bağlı Səlim Müslümovun işindən başqa bir cinayət işi də var. Bu məsələ ilə bağlı araşdırma nəticəsində eks-nazirin vəzifədə olduğu dövrdə nazirliyin bir sıra əməkdaşlarının, tenderlərdə qalib olmuş şirkətlərin rəhbərlərinin fəaliyyətləri zamanı qanunsuzluqlara yol verdikləri ortaya çıxıb. İsraf edildiyi iddia olunan ümumilikdə 7 milyon manatla əlaqədar Səlim Müslümova ittiham verilsə də, o vəsaitləri həmin şəxslər ödəməlidir.

Odur ki, istintaq orqanı həmin adamları çağırıb, onlardan vurduqları ziyanı tələb edir. Nəticədə qanunsuzluğa yol vermiş şəxslərin bir qisminə 7 milyonun 1 milyondan artıq hissəsi ödətdirilib. Qalan 6 milyon manata yaxın hissəsinin də ödənilməsi davam etdirilir.

Səlim Müslümov məhkəmədə ifadə verəndə də deyirdi ki, özünü mənimsəmə və rüşvətalmada təqsirli bilir, di gəl, israfetmə ittihamını qəbul eləmir. Ona görə də 20 milyonu ödəsə belə, qalan 7 milyonu qaytarmaq niyyətində deyil.

Həmin vaxt bu barədə yazmışdıq və bildirmişdik ki, keçmiş nazirin belə reaksiyası nə hüquqi, nə də əxlaqi baxımdan qəbuledilən, ümumiyyətlə isə yerli-dibli anlaşılan deyil. Sitat: "Təsəvvür edin ki, bir keçmiş nazir mənimsəməyə yol verdiyini boynuna alır, rüşvəti qəbul eləyir, lakin... Lakin israfetmə ilə razılaşmır!

Məntiq tapmaq çətin məsələdir: belə çıxır ki, hazırda 62 yaşı olan, ağsaqqallıq çağı ərəfəsində olan Səlim müəllim büdcə vəsaitlərinin altından girib üstündən çıxdığını boynuna alır; üstəlik, öz fəaliyyətində rüşvətin həlledici rol oynayacağını qəbul edir, bütün bu sadalananlara görə dövlət büdcəsinə 20 milyon manatlıq zərər vurması, nəhayət, həmin zərəri geri ödəməli olması ilə razılaşır, amma...

Amma 6 milyon manatlıq israfetməni üzərindən atır! Şübhəsiz ki, bu, hər hansı məntiqə sığmır..."

İndi isə "ziyanın tam ödənilməsi üçün görülən işlərin tamamlanması məqsədilə müdafiə tərəfinə (yəni S.Müslümova) vaxt verilməsi"ndən belə aydınlaşır ki, eks-nazirin inadı qırılıb və o, israfetməyə görə təyin edilən zərəri - 6 milyon manatı da ödəməyə razılaşıb.

Xatırladaq ki, Səlim Müslümov 2021-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub. Cinayət Məcəlləsinin 179.4 ( xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə ittiham olunur.

Sabiq nazir 13 ay həbsdə qaldıqdan sonra səhhətində yaranan problemlə bağlı ev dustaqlığına buraxılıb.

Müslümovun dövlətə vurduğu ziyanı ödəmək üçün əmlaklarının bir hissəsini satışa çıxardığına dair mətbuatda məlumatlar yayılmışdı. Onun hətta illərlə istifadə etdiyi (050) 211-20-... mobil telefon nömrəsini də satdığı deyilirdi. Bununla bağlı sosial şəbəkələrdən birində nömrə satışı ilə bağlı olan səhifədə elan yerləşdirildiyi də vurğulanırdı. Həmin nömrəyə 15 min manat qiymət qoyulduğu bildirilmişdi.

Yeri gəlmişkən, eks-nazirin Bakının müxtəlif rayonlarındakı evlərinə, mənzillərinə, qeyri-yaşayış və torpaq sahələrinin üzərinə həbs qoyulduğunu da xatırlatmaq yerinə düşər. Lakin cəmiyyət və media Müslümovun daha böyük sərvətə, daha çox daşınmaz əmlaka sahib olduğunu, üstəlik, mənzillərinin, mülklərinin, obyektlərinin və torpaq sahələrinin yalnız Bakı ilə məhdudlaşmadığını düşünür...

Belə düşüncələri təsdiqləyən isə istintaq dövründə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən aparılan yoxlamadır. Həmin yoxlama zamanı məlum olub ki, keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov əmlaklardan yalnız birini öz adına rəsmiləşdirib. O, mülklərini əsasən, övladlarının və yaxın qohumlarının adına alıb. Həmin qohumlar arasında Ağsu Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Ənvər Seyidəliyevin oğlu da olub. Qiymətləndirmə zamanı aydınlaşıb ki, Səlim Müslümovun mülkiyyətində olan əmlakların ümumi dəyəri 18,605,500 manatdır.

Fikrimizcə, əlavə sözə ehtiyac qalmır. Sadəcə onu deyək ki, bu qədər varidatın müqabilində 6 milyon manatı ödəməkdən imtina anlaşılmazdır...

***Toğrul Əliyev***

# Qarabağda yaşayan ermənilər üçün yeganə yol: "Ya qəbul edin, ya da gedin"

***Prezident İlham Əliyevin AzTV-yə müsahibəsində Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi ilə bağlı səsləndirdiyi fikirləri erməniləri ciddi narahat edib. Hətta Ermənistan Xarici İşlər Nazirliyi bununla bağlı heç bir hüquq normasına, siyasi-diplomatik qaydalara uyğun olmayan bəyanat verməkdən çəkinməyib.***

Rəsmi Bakı isə öz növbəsində Ermənistan Xarici İşlər Nazirliyinin növbəti dəfə təhrif dolu bəyanatını qətiyyətlə rədd edib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan XİN-in Azərbaycan əleyhinə 19 aprel tarixli bəyanatına dair şərhində qeyd olunub. Bildirilir ki, 30 ilə yaxın işğal dövründə 9 şəhər və yüzlərlə kəndi talan edən, 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən, onları öz evlərinə qayıtmaq hüququndan məhrum edən, Azərbaycan torpaqlarının işğalına son qoyulması barədə beynəlxalq təşkilatların və tərəfdaşların çağırışlarına məhəl qoymayan Ermənistanın özünü sülhpərvər tərəf kimi göstərməsi və Azərbaycanı etnik təmizləmədə ittiham etməsi riyakarlıq və saxtakarlıq nümunəsidir:

"Beynəlxalq öhdəliklərə və hətta Beynəlxalq Ədalət Məhkəməsinin qərarına baxmayaraq, sonuncu dəfə Avropa ağırlıqqaldırma çempionatında Azərbaycan bayrağının yandırılmasından da göründüyü kimi, Azərbaycana qarşı nifrət zəminində irqi ədavətin təşviq edilməsini davam etdirən, nifrət zəminində hərəkət edən şəxslərin və etnik-milliyyətçi qrupların fəaliyyətini alqışlayan və belə hərəkətlərə görə cəza verməyən, Azərbaycan əsirlərinə qarşı vəhşiliklər törədən, kütləvi qırğınlar törədən Ermənistanın Azərbaycanın nifrət zəminində hərəkətlər etdiyi iddiasının heç bir əsası yoxdur. Azərbaycan tərəfi Azərbaycan ərazisində yaşayan erməni sakinlərin reinteqrasiyası prosesində qərarlıdır. Ermənistan tərəfi bu prosesə müdaxilədən əl çəkməlidir. Azərbaycan ərazisində, Azərbaycan qanunları çərçivəsində yaşamaq istəyən hər bir şəxsin hüquq və azadlıqlarının təmin olunmasına zəmanət verilir.

Cənab Prezident tərəfindən qeyd edildiyi kimi, ərazilərinin 30 il ərzində işğal altında saxlanmasına baxmayaraq, məhz Azərbaycan tərəfi Ermənistanla ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında sülh müqaviləsinin imzalanması üzrə təklifin təşəbbüskarı olub. Bunun əksinə, Ermənistan tərəfi nəinki danışıqlar prosesinə müxtəlif bəhanələrlə mane olur, sülh müqaviləsinin mətninə beynəlxalq hüquq prinsipləri ilə birbaşa ziddiyyət təşkil edən məsələləri daxil etməyə cəhd edir, bununla da prosesi uzadır. Ermənistanın sülh müqaviləsi üzrə Azərbaycanın təkliflərinə son 43 gün ərzində heç bir şərh verməməsi də, bu ölkənin nəticə yönümlü danışıqlarda maraqlı olmamasının nümunəsidir.

Əlverişsiz hava şəraitində Ermənistan ərazisinə keçən və əsir götürülmüş, beynəlxalq humanitar hüquq prinsiplərinə zidd olaraq qeyri-insani zorakılığa məruz qalmış Azərbaycan hərbçilərinin heç bir hüquqi əsas olmadan, Ermənistan Xarici İşlər Naziriyi tərəfindən insan öldürülməsində ittiham olunması hüququn bütün norma və prinsiplərinə ziddir. Ermənistan XİN-nə məlum olmalıdır ki, cinayətin törədilməsində təqsirləndirilən hər hansı bir şəxsin təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin əsaslı və qanuni qüvvəyə minmiş hökmü yoxdursa həmin şəxs təqsirsiz sayılır. Görünür ki, hüququn aliliyindən bəhs edən Ermənistan tərəfinin hüququn elementar prinsiplərindən belə xəbəri yoxdur. Bununla yanaşı, Ermənistanın sözügedən addımı göstərir ki, 30 illik işğala son qoyulandan sonra, Azərbaycan sərhədini azaraq keçən erməni hərbçilərinin dərhal Azərbaycan tərəfindən geri qaytarılması kimi etimad quruculuğu tədbirinə qarşılıq vermək niyyəti yoxdur və bu hərəkət qətiyyətlə pislənməlidir.

Hər hansı sülhpərvər mesaj kimi təqdim olunan çağırışlar heç bir əməli addımlarla müşayiət olunmursa, əksinə Ermənistan tərəfindən bu kimi saxta mesajlar səslənərkən eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialara yer verilirsə, 10000 civarında silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edirsə, Azərbaycanın işğal altında olan 8 kəndini azad etmirsə, Azərbaycan ərazilərində hərbi və siyasi təxribatlarını davam etdirirsə, Ermənistanın bu kimi çağırışlarının heç bir əsası yoxdur. Azərbaycan tərəfi ilk təşəbbüsü irəli sürən tərəf kimi, ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında Ermənistanla sülh sazişini imzalamağa hazırdır. Bunun üçün, Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli və birmənalı olaraq Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul etməlidir".



Bu barədə "Unikal"a açıqlama verən deputat Aydın Mirzəzadə deyib ki, Ermənistan Azərbaycan torpaqlarını 30 il işğalda saxlayıb, ərazilərində barbarlıq edib. Onun sözlərinə görə, Ermənistanda bayrağımızın yandırılması və itkin düşən əsgərlərimizin həbs edilməsi beynəlxalq ictimaiyyət tərəfindən qınanılıb: "Ermənistan Xarici İşlər Nazirliyi son bəyanatında Azərbaycanı ittiham edib. Ermənilər bilməlidirlər ki, işğalçı Ermənistanın Azərbaycanı nədəsə ittiham etməsinə ehtiyac yoxdur. Cənab Prezident İlham Əliyev Salyan və Neftçala rayonlarına səfəri zamanı etdiyi çıxışında Azərbaycanın mövqeyini bir daha ortaya qoydu. Azərbaycan torpaqlarını işğaldan azad edib və öz ərazilərində suveren hüquqlara malikdir. Onu da qeyd edək ki, Ermənistan bu günədək Azərbaycanın 8 kəndini də işğal altında saxlayıb. Ermənistan bu məsələdə Azərbaycana cavab verə bilmir, çünki ortada konkret faktlar və xəritə var. Hesab edirəm ki, Ermənistan XİN-in bəyanatı beynəlxalq ictimaiyyəti çaşdırmaqdan başqa bir şey deyil. Onlar özləri də yaxşı bilirlər ki, Azərbaycan haqq işindədir və Azərbaycanın dediyi həqiqətdir. Heç bir bəyanat və yaxud siyasi təzyiq Azərbaycanı suveren hüquqlarından imtina etməyə məcbur edə bilməz", - deyə A. Mirzəzadə qeyd edib.

Deputat həmçinin Qarabağdakı separatçıların həmin ərazilərdən getməsindən də danışıb. O bildirib ki, Qarabağda 25 minə qədər erməni əsilli insan yaşayır: "Həmin adamların hüquqi statusu hələ də müəyyənləşməyib. Azərbaycan onlara vətəndaşlıq, yüksək hüquq və azadlıqlara malik olmalarını və sosial problemlərinin həll olunmasını təklif edir. Digər tərəfdən, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etmirlərsə, deməli, ərazilərimizdən çıxıb getməlidirlər".

***Murad İbrahimli***



## Bayrağımızı yandıran şəxs beynəlxalq axtarışa verildi - RƏSMİ

***Xəbər verildiyi kimi, aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən Ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində mediadan istifadə olunmaqla milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş nümayişkəranə hərəkətlərlə Dövlət bayrağımızın yandırılması faktı üzrə Azərbaycan Respubliksının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 12.2, 283.2.1, 12.2, 283.2.2 və 12.2, 324-cü maddələrilə başlanmış cinayət işinin istintaqı Baş prokurorluğun İstintaq idarəsində davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, ibtidai istintaqla "Ermənistan İctimai Televiziyası"nın Dizayn studiyasının rəhbəri işləmiş, 28 sentyabr 1982-ci ildə Ermənistan Respublikasının İrəvan şəhərində anadan olmuş və həmin dövlətin vətəndaşı olan Nikolyan Aram Vrejinin milli düşmənçilik zəminində Azərbaycan Respublikası vətəndaşları və onun maraqlarına qarşı cinayətlər törətmək məqsədilə hazırda şəxsiyyətləri istintaqla araşdırılan bir qrup şəxslə birləşərək qeyd olunan tədbirdə geniş beynəlxalq auditoriya qarşısında nümayişkəranə şəkildə Dövlət bayrağımızı qəsdən yandırıb Azərbaycana qarşı Ermənistan cəmiyyətində milli nifrət və düşmənçiliyin salınmasına, eləcə də milli ləyaqətin alçaldılmasına yönələn hərəkətlər törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Aram Nikolyan aprelin 19-da Cinayət Məcəlləsinin 12.2, 283.2.1, 12.2, 283.2.2 və 12.2, 324-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı əsasında barəsində həbs qətimkan tədbiri seçilməklə İnterpol xətti ilə beynəlxalq axtarışa verilmişdir.

Göstərilən xüsusatlarla əlaqədar Baş Prokurorluq tərəfindən həmin cinayət işinin istintaqının birgə əməkdaşlıq çərçivəsində aparılması üçün xarici dövlətlərin hüquq-mühafizə orqanlarına hüquqi yardım haqqında rəsmi müraciətlər göndərilərək Aram Nikolyan barəsində zəruri istintaq hərəkətlərinin keçirilməsi və dövlət sərhəddini keçdiyi halda saxlanılaraq Azərbaycan Respublikasına ekstradisiya olunması xahiş edilib.

Azərbaycan Respublikası və onun vətəndaşlarına qarşı milli nifrət və düşmənçiliyinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, eləcə də təqsirkar şəxslərin milli və beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri istiqamətində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən kompleks tədbirlərin görülməsi davam etdirilir.

# Prezidentdən 7 milyon manatlıq sərəncam



***Azərbaycan Prezidenti İlham Əliyev Neftçala rayonunun Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd-Xol Qarabucaq-Xəzər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.***

”Unikal” xəbər verir ki, Sərəncama əsasən, on beş min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd-Xol Qarabucaq-Xəzər avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Azərbaycan Rusiyaya nota verdi

***Rusiya Federasiyası Dövlət Dumasının İnformasiya siyasəti, informasiya texnologiyaları və rabitə komitəsinin sədr müavini Oleq Matveyçevin “RUSARMİNFO” erməni xəbər agentliyinin efirində səsləndirdiyi bəyanatları ilə əlaqədar Azərbaycanın Rusiyadakı Səfirliyi tərəfindən Rusiya XİN-ə etiraz notası göndərilib.***

Bu barədə ”Unikal”a Azərbaycanın Rusiyadakı Səfirliyindən bildirilib.

“Vahid Rusiya” partiyasından olan deputatın Azərbaycan və Türkiyəyə qarşı fikirləri qəbuledilməz olduğu vurğulanıb, onların regionda sabitliyi pozmağa yönəldiyi və Ermənistan cəmiyyətində revanşist qüvvələrin keçmişdə qalmış münaqişəni yenidən alovlandırmağa təhriki kimi qiymətləndirilib.



İşğaldan azad edilmiş ərazilərdə fəal şəkildə aparılan yenidənqurma işləri fonunda “Azərbaycan tərəfindən münaqişənin qızışdırılması” ilə bağlı bəyanatların cəfəngiyat olduğu qeyd olunub.

Bildirilib ki, 30 illik işğalın ağır nəticələrinə baxmayaraq, ilk olaraq Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinə təşəbbüs göstərən, dövlətlərin ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasını nəzərdə tutan sülh gündəliyinin təşviqini davam edən məhz Azərbaycan olub.

Azərbaycan tərəfi Rusiyanın hakim partiyasının nümayəndəsinin bu cür bəyanatlarının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün səylər göstərən Rusiyanın vasitəçiliyinə kölgə saldığını bildirib: ”Oleq Matveyçev iki ölkə arasında 2022-ci ilin fevralında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə barədə xəbərsiz ola bilməz və onun bu cür bəyanatları həmin sənədin müddəalarının pozulması deməkdir. Hakim partiyanın nümayəndəsi olan deputat öz bəyanatlarında məsuliyyətli olmalı və Rusiya Federasiyasının rəsmi mövqeyini rəhbər tutmalıdır.

Rusiya parlamentində informasiya siyasətinə cavabdeh deputatın Azərbaycana qarşı hücumlar üçün informasiya platforması olan, Rusiyada etnik zəmində millətlərarası düşmənçiliyi qızışdıran erməni saytına müsahibəsi onun sifarişli və imperativ xarakter daşımasından xəbər verir”.

# Energetika Nazirliyinin bu səlahiyyəti əlindən alındı

Prezident İlham Əliyev “Qaz təchizatı haqqında” qanunun tətbiq edilməsi barədə” 28 sentyabr 1998-ci il tarixli, “Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında” 22 dekabr 2017-ci il tarixli və “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 16 iyul 2018-ci il tarixli fərmanlarında dəyişiklik edib.

”Unikal” xəbər verir ki, dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb. Fərmana əsasən, Fövqəladə hallar Nazirliyinə qaz qurğularına və yaxud qazla bağlı fəaliyyətə nəzarət etmək səlahiyyəti verilib. İndiyə qədər həmin səlahiyyət yalnız Enerji Məsələlərini Tənzimlənməsi Agentliyinə məxsus idi.

Bununla da, hər iki mərkəzi icra hakimiyyəti orqanı qaz qurğularının və yaxud qazla bağlı fəaliyyətlərin tələblərə cavab verməndiyini, onun əhali, ətraf mühit və əmlak üçün təhlükə törətdiyini müəyyən etdikdə qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirləri görməlidir.



# Ermənistan parlamentində dava: deputatlara töhmət verildi

***Ermənistan parlamentində növbəti dəfə dava düşüb.***



”Unikal” erməni KİV-ə istinadən xəbər verir ki, parlamentin deputatı Taquhi Tovmasyan çıxışında siyasi aksiya keçirdiyi bəyan edib. Bundan sonra parlamentdə fikir narazılığı yaşanıb. Parlamentin spikeri Alen Simonyan təhlükəsizlik əməkdaşlarını iclas zalına dəvət edib. Deputatlar ilə mühafizəçilər arasında dava düşüb.

Ermənistanda müstəqil deputat Taqui Tovmasyanın parlamentdə təşkil etdiyi siyasi aksiyadan sonra spiker Alen Simonyanın qərarı ilə müxalifətdən olan 10 deputata töhmət verilib.

”Unikal” erməni KİV-ə istinadən xəbər verir ki, qərara əsasən, 10 deputat günün sonuna qədər iclas zalından çıxarılıb və sessiyada iştirak etmək hüququndan məhrum edilib.

”Taqui Tovmasyan, Qeqam Manukyan, Qarnik Danielyan, Anna Mkrtçyan, Hayk Mamicanyan, Anna Qriqoryan, Tiqran Abramyan, Taron Marqaryan, Artur Sarkisyan, Andranik Tevanyan səsvermə hüququndan məhrum ediləərək, günün sonuna kimi sessiyalardan xaric ediliblər”,- deyə Alen Simonyan elan edib.

***Gülayə Mecid***

# Azərbaycanda daha 48 nəfər koronavirusa yoluxub, 3 nəfər ölüb

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 48 yeni yoluxma faktı qeydə alınıb, 82 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Unikal”a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfər vəfat edib. İndiyədək ümumilikdə 831 041 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 820 399 nəfər müalicə olunaraq sağalıb, 10 220 nəfər vəfat edib, aktiv xəstə sayı 422 nəfərdir.



Ölkədə son sutka ərzində 1002, hazırkı dövrədək isə 7 580 828 test aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Partiya sədri "Banditotdel"ə ÇAĞIRILDI



***Azərbaycan Yüksəliş Partiyasının başqanı Anar Əsədli Daxili İşlər Nazirlinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsindədir.***

”Unikal” xəbər verir ki, Daxili İşlər Nazirliyinin (DİN) KİV və İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev bildirib ki, Anar Əsədli istintaq hərəkətləri ilə əlaqədar Baş İdarəyə dəvət olunub.

Qeyd edək ki, Anar Əsədli bir müddət əvvəl də tanışları Oqtay Qasımov və İlham Hüseynovun şikayətləri əsasında DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılmışdı. Şikayətçilər Anar Əsədlini onlara olan borclarını qaytarmamaqda ittiham edirlər. Əlavə edək ki, bu işlə əlaqədar Anar Əsədlinin ölkədən çıxışına da qadağa qoyulub.

# Dövlət büdcəsinə yenidən baxılması üçün tapşırıqlar verildi

***20 aprel 2023-cü il tarixində Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib.***

”Unikal” xəbər verir ki, bu barədə Nazirlər Kabinetindən məlumat verilib. İclasın gündəliyində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli iqtisadiyyatımızın mövcud müsbət nəticələrini, makroiqtisadi vəziyyəti, cari ilin birinci rübü üzrə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq icra göstəricilərini nəzərə alaraq 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) ilə bağlı Hökumətə verdiyi tapşırıqlar, o cümlədən, Ortamüddətli Xərclər Çərçivəsi və 2024-cü il və növbəti üç il üçün icmal və dövlət büdcələrinin proqnozları, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası” üçün maliyyə təminatı və digər məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun məruzəsi və Şura üzvlərinin rəy və təklifləri dinlənilib. İclasın yekununda 2023-cü ilin dövlət büdcəsinə əlavə düzəlişlər hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Prezident və birinci xanım “Cümə” məscidinin açılışında



***Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlət başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra “Cümə” məscidinin açılışı olub.***

”Unikal” xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Bu gün multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dininin abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində “Cümə” məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir.

Qeyd edək ki, ”Cümə” məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb.

Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.

Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib.

Nərimanov rayonundakı “Cümə” məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

Qeyd edək ki, bu gün qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya, dinin bəzi siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Azərbaycan dövlətinin isə milli-mənəvi dəyərlərin, o cümlədən İslam ənənələrinin qorunması ilə bağlı ardıcıl siyasəti var.

Prezident İlham Əliyev “2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfransın açılış mərasimindəki nitqində bununla bağlı deyib: “Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir”.

2017-ci ilin “İslam Həmrəyliyi ili” elan edilməsi, ölkəmizin İslam Həmrəyliyi Oyunlarına, eyni zamanda, BMT-nin Sivilizasiyalar Alyansının QlobalForumununa, Mədəniyyətlərarası Dialoq Forumları və Bakı Humanitar Forumu kimi dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın həm islam, həm də sivilizasiyalar arası dialoqla qlobal sülhə töhfəsinin ifadəsidir. Bu yanaşma, şübhəsiz ki, İslamın təməl prinsipləri ilə üst-üstə düşür.

# Tələbələr Azərbaycana bu qaydada qayıdacaqlar

***Türkiyədə təhsil alan tələbələrin Azərbaycana qayıdışı qaydası açıqlanıb. Elm və Təhsil Nazirliyindən (ETN) “Unikal”a bildirilib ki, hazırda Türkiyədə 27 minə yaxın Azərbaycan vətəndaşı təhsil alır.***

Rəsmi məlumata görə, həmin tələbələrin ölkəyə qayıdışı onların təhsil aldıqları ali təhsil müəssisəsindəki təhsilin təşkili formasına uyğun olaraq, şəxsi seçimləri əsasında tənzimlənir: “Azərbaycana qayıtmaq üçün hansısa müraciət-qeydiyyat prosesinə zərurət olmadığından onların müvafiq sərhəd-buraxılış məntəqələrindən ölkəyə girişi aidiyyəti dövlət qurumları tərəfindən idarə edilir. Elm və Təhsil Nazirliyində xaricdə, o cümlədən Türkiyədə yalnız dövlət hesabına təhsil alan Azərbaycan vətəndaşlarının qeydiyyatı aparıldığından şəxsi vəsait hesabına bu ölkədə təhsil alan Azərbaycana giriş edənlərin sayı barədə nazirlikdə məlumat mövcud deyil. Həmin şəxslərin hansı sərhəd-buraxılış məntəqələrindən ölkəyə buraxılmaları barədə məlumatın aidiyyəti dövlət qurumundan soruğu edilməsi tövsiyə edilir”.

Qeyd edək ki, Türkiyədə ikinci semestrdə təhsilin distant qaydada həyata keçirilməsi ilə bağlı qəbul edilən qərar səbəbindən hazırda həmin ölkədə subbakalavr, bakalavr, magistratura, doktorantura və rezidentura təhsili alan Azərbaycan vətəndaşları və onların birinci dərəcəli ailə üzvlərinin (ata/ana, ər/arvad, övladlar) tələbə biletini təqdim etməklə zəruri icazə olmadan mayın 10-dək quru sərhədləri vasitəsilə Azərbaycana daxil olmalarına icazə verilib.



# “Azərsu” gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək

***Ramazan bayramı ilə əlaqədar qeyri-iş günlərində “Azərsu” Açıq Səhmdar Cəmiyyəti gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.***

”Unikal” bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir. Məlumata görə, bayram günlərində mərkəzi idarə aparatında, regional, yerli sukanal idarələri və sahələrində 24 saatlıq növbətçilik təmin olunacaq. Bu məqsədlə “Azərsu” ASC-nin sədr müavinləri, department və şöbə rəisləri səviyyəsində növbətçilik cədvəli təsdiq olunub.




Abonentlərin diqqətinə çatdırılır ki, bayram və qeyri-iş günlərində əhalinin içməli su ilə təchizatında dayanıqlılığın təmin olunması məqsədilə bütün təşkilatı və texniki tədbirlər görüləcək, qəza xidmətləri fasiləsiz fəaliyyət göstərəcək. Bayram günlərində hidrotexniki qurğularda, anbarlarda və magistral xətlərdə hər hansı planlı təmir-bərpa, qoşulma və profilaktik işlər aparılmayacaq.

İstehlakçılardan xahiş olunur içməli su təchizatı və kanalizasiya xidmətlərində yaranacaq problemlərlə əlaqədar “Azərsu” ASC-nin 955 Zəng Mərkəzinə müraciət etsinlər.



# Müdafiə naziri şəxsi heyəti təbrik edib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən “Unikal”a bildiriblər ki, təbrikdə deyilir: “Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar mülki işçilər!

Dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik, bərabərlik rəmzi olan Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

İslami dəyərlərin qorunduğu ölkəmizdə hər il dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Ramazan bayramı insanlar arasında bərabərliyi, birliyi daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə təcəssüm etdirir.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərləri yüksək tutaraq adət və ənənələrimizin qorunub saxlanmasını reallığa çevirdi. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqları möhkəmlənib, Azərbaycan demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər qazanıb. Dövlətimizin inkişafında prioritet istiqamətlərdən hesab edilən ordumuzun müdafiə qüdrətinin gündən-günə artırılması ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artaraq xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatıb.

Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsi olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin törətdiyi irimiqyaslı təxribatlara qarşı rəşadətli Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatlarında əsgər və zabitlərin qəhrəmanlığı, fədakarlığı sayəsində 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız azad edilib. Müzəffər Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, qətiyyətli addımları, ordumuzun gücü sayəsində düşmən üzərində parlaq Qələbə qazandıq. Azərbaycanın ərazi bütövlüyü təmin olunub. Bu gün rəşadətli Azərbaycan Ordusu işğaldan azad etdiyi ərazilərdə öz mövqelərini daha da gücləndirməklə dövlət başçısının rəhbərliyi ilə başlayan genişmiqyaslı bərpa-quruculuq işlərinə layiqli töhfələrini verməkdədir.

Hərbi anda sədaqətə, çətin və şərəfli hərbi xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm.

Azərbaycanın suverenliyi, müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi, Ramazan bayramı ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Eyni zamanda, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Şəhid ailələri daim Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunur. Onların problemlərinin həlli istiqamətində müxtəlif layihələr həyata keçirilir. Arzu edirəm ki, bu müqəddəs Ramazan bayramı gəlişi ilə ailələrinizə firavanlıq, xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət gətirsin. Bir daha hər birinizi Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram. Ramazan bayramınız mübarək!”.



## Vilayət Eyvazov onu rəis müavini təyin etdi

***Daxili işlər orqanlarında yeni təyinat olub.***

"Unikal"ın məlumatına görə, polis baş leytenantı Vüsal Əmrahov Şamaxı RPŞ-nin xidmət üzrə rəis müavini təyin edilib.

O, bundan əvvəl həmin şöbənin İctimai Təhlükəsizlik Bölməsinin rəisi vəzifəsində işləyib.

***Murad İbrahimli***

## Dövlət Mülki Aviasiya Agentliyinin səlahiyyəti artırıldı

***Dövlət Mülki Aviasiya Agentliyi Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın Katibliyinin funksiyalarını həyata keçirəcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.

Fərmana əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən komissiyaların işində iştirak edəcək və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın Katibliyinin funksiyalarını həyata keçirəcək.

Prezident İlham Əliyevin imzaladığı digər fərmanla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə" yə də dəyişiklik edilib.

Fərmana əsasən, Nazirlik aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görəcək.

## Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin nəzərinə!

***"Hazırda Türkiyədə 27 minə yaxın Azərbaycan vətəndaşı təhsil alır".***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib. Bildirilib ki, həmin tələbələrin ölkəyə qayıdışı onların təhsil aldıqları ali təhsil müəssisəsindəki təhsilin təşkili formasına uyğun olaraq, şəxsi seçimləri əsasında tənzimlənir.

"Azərbaycana qayıtmaq üçün hansısa müraciət-qeydiyyat prosesinə zərurət olmadığından onların müvafiq sərhəd-buraxılış məntəqələrindən ölkəyə girişi aidiyyəti dövlət qurumları tərəfindən idarə edilir. Elm və Təhsil Nazirliyində xaricdə, o cümlədən Türkiyədə yalnız dövlət hesabına təhsil alan Azərbaycan vətəndaşlarının qeydiyyatı aparıldığından şəxsi vəsait hesabına bu ölkədə təhsil alan Azərbaycana giriş edənlərin sayı barədə nazirlikdə məlumat mövcud deyil. Həmin şəxslərin hansı sərhəd-buraxılış məntəqələrindən ölkəyə buraxılmalarını aidiyyəti dövlət qurumu müəyyən edir", - deyə məlumatda qeyd olunub.

# "Vəziyyət kifayət qədər gərgindir"

## Qabil Hüseynli: "Bizim hərəkətlərimizin əsas taktikası ondan ibarət olacaq ki, mülki əhalini revanşizm və separatçı əhval-ruhiyyədə saxlamağa çalışan şəxsləri təcrid edək və onları neytrallaşdıraq"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Ermənistanda olan revanşist qüvvələrin yenidən baş qaldırmaq istəməsindən, Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının hansı mərhələdə olmasından, İran-Azərbaycan münasibətlərinin hazırkı durumundan və başqa məsələlərdən danışıb.***

***-Qabil müəllim, Prezident İlham Əliyev Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində dünyada təhdid və təhlükələrin artdığını bildirib. Dövlət başçısı qeyd edib ki, Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq. Necə düşünürsüz, yenidən müharibə ola bilərmi?***

-Belə bir söz var - Qisas qiyamətə qalmır. Yəni, zamanında həyata keçirilir. Sərhəddə İranın təhriki ilə Ermənistanın avantürasının şahidi olduq. Üç yüksək təcrübəli hərbi qulluqçumuz şəhid oldu. Bir neçə gün əvvəl isə iki əsgərimiz Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən yolu azaraq qarşı tərəfə keçiblər. Bundan sonra onlara qarşı görülməmiş vəhşilik törədilib və etmədikləri cinayəti üzərlərinə ataraq həbs edibləр. Bunun ardınca Azərbaycana qarşı daha böyük həqarət səhifəsi yaşanıb. Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatında vandal, millətçilik azarı ilə xəstələnmiş pozucu zehniyyətin əsiri olan, həm də təşkilat komitəsinə daxil olan şəxs Azərbaycanın Dövlət Bayrağını yandırıb. Deyərdim ki, bizim bayrağımızı əvvəlcədən yanğına hazırlamışdılar. Onun üzərinə yandırıcı maddə tökmüşdülər. Bunlar hamısı dünya tərəfindən pislənilsə də, bizim ürəyimizə dağ çəkib. Ona görə də biz bu vəhşi hərəkətləri cavabsız qoymaq fikrində deyilik. Əlbəttə, Azərbaycanın əsas diqqəti Xankəndi ətrafına toplanıb. Bu ərazilər üzərində suverenliyimizi tam bərpa etmək və bir neçə şəxsin əsarəti altında olan erməni əhalisini Azərbaycan vətəndaşlığına qaytarmaq istəyirik. Vəziyyət kifayət qədər gərgindir. Amma Azərbaycan Ordusu nəzərdə tutulan hərəkətləri həyata keçirmək üçün kifayət qədər peşəkarlığa, yüksək hazırlıq səviyyəsinə malikdir. Bizim hərəkətlərimizin əsas taktikası ondan ibarət olacaq ki, mülki əhalini revanşizm və separatçı əhval-ruhiyyədə saxlamağa çalışan şəxsləri təcrid edək və onları neytrallaşdıraq. Əsas məsələ Xankəndi və Qarabağın dağlıq hissəsindəki digər ərazilərə nəzarəti bərpa etməkdir. Qarabağın strateji yüksəklikləri üzərində Azərbaycanın tam nəzarəti var. Onun vasitəsilə istənilən hərəkətləri həyata keçirmək çətin olmayacaq. Bununla yanaşı, Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində açıq şəkildə bildirdi ki, "Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar". Məsələ kifayət qədər qətiyyətli və sərt formada qoyulub. Belə görünür ki, bunun ardınca Azərbaycan Prezidentinin dediklərini praktikada reallaşdırmaq üçün uyğun addımlar atılacaq.

***-Prezident müsahibəsində onu da bildirib ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. "Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır", - deyə dövlət başçısı qeyd edib. Bunun Ermənistan üçün son xəbərdarlıq olduğunu demək olarmı?***

-Yuxarıda da Prezidentin qətiyyətindən danışdım. Bu qətiyyətin tam zamanında verildiyini söyləmək istərdim. Biz uzun müddət ermənilərin himayəsində duran insanların diplomatik manevrləri ilə vaxtı, fürsəti boşa vermək fikrində deyilik. Elə məsələlər var ki, onun ətrafında hansısa diplomatik danışıqlara ehtiyac duyulmur, yalnız icra olunur. Ərazi bütövlüyümüzü tanıyan dünya həm də bu ərazilər üzərində suveren hüquqlarımızın bərpa edilməsinə qarışmalı deyil. Bu, Azərbaycanın daxili işidir. Bunu da Ordumuz, onun peşəkar dəstələri qısa müddətdə həyata keçirmək iqtidarındadır. Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdəki çıxışlarında bildirib ki, Qarabağdakı məsələlərə Ermənistanın qatılmaq fikri yoxdur. Bu, Azərbaycan konstitusiyası çərçivəsində həll edilməlidir. Paşinyan eyni zamanda hansısa beynəlxalq nəzarət mexanizminin qurulmasını ortaya atır. Biz ərazilərimizdə yaşayan ermənilərin qayğısına qalmaq fikrindəyik. Amma bu şərtlə ki, onlar Azərbaycan qanunlarına tabe olsunlar, birgə yaşayış qaydalarına uyğun hərəkət etsinlər, separatçılıq xəstəliyindən uzaq dursunlar və müxtəlif avantürüst, millətçi radikalların onları aldatmasına əhəmiyyət verməsinlər. Onlar Azərbaycana tabeçilik göstərməlidirlər. Bundan sonra onlar əvvəlkindən daha da yaxşı yaşayacaqlar.

***-Bildiyiniz kimi Ermənistanla Azərbaycan arasında sülh danışıqları davam edir. Necə düşünürsüz, danışıqlar hazırda hansı mərhələdədir?***

-Danışıqlar birbaşa görüşlər şəklində olmasa da, onlayn yolla aparılır. İmzalanacaq sülh sənədinin çərçivə və konseptual cəhətlərinin formalaşdırılması üzərində razılaşmalar davam edir. Məndə olan məlumata görə, razılaşdırılmış məqamlar çoxdur və hazırda proses sürətlə gedir. Sadəcə Ermənistanın baş naziri Nikol Paşinyanın bəzi sürüşkən hərəkətləri, onun kütləyə yönəlmiş manevrləri sülh danışıqları prosesində müəyyən gərginliklər yarada bilir. Bunlar çözülən hərəkətlərdir. Belə ki, sülh müqaviləsinin imzalanmasını mümkün edən cəhətlər daha çoxdur. Bu il ərzində Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması baş tuta bilər.



***- İran-Azərbaycan münasibətlərini necə qiymətləndirirsiz?***

-Hazırda İran çox xəyanətkar bir mövqedə dayanıb. Azərbaycanı təhdid edir, kəşfiyyat işləri aparır və əldə edilmiş məlumatları Ermənistana ötürür. İranın hərəkətlərində heç bir gizlinlik qalmayıb. Bununla yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İran Prezidenti İbrahim Rəisiyə ciddi xəbərdarlıq etdiyi də bəllidir. Bundan sonra İranın müəyyən qədər özünü yığışdırdığı görünməkdədir. İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahianın Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəngi də bununla əlaqədardır. Həmçinin, Azərbaycan cənub sərhədlərini möhkəmləndirmək üçün kifayət qədər tədbirlər həyata keçirir. Ən müasir hava hücumundan müdafiə vasitələrini həm dəniz, həm də quru sahəsində yerləşdirir. Yeni sərhəd zastavaları yaradılır. Öz tərəfimizdən müdafiə və möhkəmləndirmə işlərinə diqqət yetiririk. Türkiyənin İrana xəbərdarlığı və Azərbaycana qarşı hər hansı bir addımın atılacağı təqdirdə bütün silah növləri ilə yanımızda olacaqlarını deməri İrana təsir göstərib. Bu günlərdə İsrailin xarici işlər naziri Eli Kohen ölkəmizə səfər etdi. Bu baxımdan deyə bilərik ki, İsrail-Azərbaycan əlaqələri genişlənməkdədir. Əlaqələrimiz strateji xarakter daşıyır və getdikcə daha da möhkəmlənir. İranın hansısa avantürası fonunda İsraildən də ciddi dəstək ala biləcəyimizi istisna etmirəm. Amma İranın da avantüra törədəciyini söyləmək istəməzdim. İran bilir ki, bunun müqabilində ABŞ, İsrail, Türkiyə, Azərbaycan və Pakistandan şiddətli cavab tədbirləri ala bilər. Bu isə İran deyilən dövlətin tamamilə çöküşünə gətirib çıxarar. İran xof yaratmaq üçün müxtəlif təhdidlərə əl atacaq. Azərbaycan isə bunun nə xarakter daşıdığını bilir. Ona görə də ölkəmiz müdafiə tədbirlərini görməklə yanaşı əsas diqqətini Ermənistana tərəf yönəltməkdə davam edir.

***Anar Kəlbiyev***

# Samir Şərifova Vüsal Kərimli şoku

## BNA-nın fəaliyyətinə xitam verilməsi maliyyə nazirini niyə məyus edib?

*Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyev “Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərman imzalayıb.*

Fərmana əsasən, Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edilməsi, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib.



Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki “Bakı Nəqliyyat Agentliyi” publik hüquqi şəxsin (BNA) ona qoşulması formasında yenidən təşkil ediləcək. Bundan başqa, BNA-nın balansındakı əmlak da yeni yaradılan Agentliyin balansına verilib.

Xatırladaq ki, cəmi 14 ay öncə, 2022-ci ilin aprelində Bakı Nəqliyyat Agentliyinin müstəqil qurum kimi ləğvi prosesi başladı. Belə ki, prezidentin imzaladığı “Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” fərmanla Bakı Nəqliyyat Agentliyi publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə keçirilmişdi. Həmin vaxt bu qərar Vüsal Kərimlinin rəhbərlik etdiyi qurumun yarıtmaz fəaliyyəti ilə izah edilirdi. Bildirilirdi ki, tıxacların qarşısını ala bilməyən, yalnız kosmetik işlərlə məşğul olan Agentliyin son zamanlar qeyri-şəffaf fəaliyyəti də hökumətin ciddi reaksiyasına səbəb olub. Təsadüfü deyil ki, BNA-nın daxilində olan ən böyük qurum - “Baku Bus” MMC qurumdan alınaraq, İnvestisiya Holdinqinə verilmiş, bundan başqa,“Baku Bus” MMC-nin Müşahidə Şurası yaradıldı. Müşahidə Şurasının yaradılması isə bu qurumun maliyyə əməliyyatları ilə bağlı ciddi şübhələrdən irəli gəlirdi. Ümumiyyətlə isə BNA-nın illik gəlirləri barəsində açıqlamaları da ictimaiyyət və ekspertlər tərəfindən birmənalı qarşılanmırdı. Xüsusilə Agentliyin keçirdiyi şübhəli tenderlər, sürücülər üçün uniformaya həddən artıq şişirdilmiş məbləğ xərclənməsi tənqidlərə səbəb olmuşdu. Gözlənilirdi ki, Agentliyin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verilməsi bütün bu neqativlikləri aradan qaldıracaq.

Görünür, həmin ümidlər doğrulmadığı üçün çox keçmədən BNA ilə bağlı yeni qərar qəbul edildi - onun fəaliyyətinə xitam verilərək Yerüstü Nəqliyyat Agentliyinin yenidən təşkili barədə fərman imzalandı.

Sözügedən qərar eyni zamanda maliyyə naziri Samir Şərifov üçün arzuedilməz sayılır. Belə ki, BNA-nın rəhbəri Vüsal Kərimlini məhz Şərifovun himayə etdiyi bildirilir. Qeyd olunur ki, adıçəkilən qurumun keçirdiyi tenderlərin qalibi olan şirkətlər əslində dolayısı ilə maliyyə nazirinin nəzarətindədir. Məhz bu səbəbdən də uzun müddətdir tənqid hədəfində olmasına baxmayaraq Kərimli toxunulmazlığını qoruyub saxlayır, eyni zamanda BNA-dakı maliyyə pozuntularına göz yumulur. ”Halbuki ötən illərdə Dövlət Maliyyə Nəzarəti Xidmətinin Bakı Nəqliyyat Agentliyində bircə dəfə yoxlama aparması kifayət edərdi ki, bu qurumda xərclərin necə şişirdildiyi, vəsaitlərin hansı yollarla havaya sovrulduğu, kimlərin cibinə getdiyi, satınalmalar zamanı şəffaflığın təmin edilmədiyi, bəlli şirkətlərin obyektivliyi şübhə doğuran, daha çox formal xarakter daşıyan tenderlərdə qalib elan olunduğu bütün çılpaqlığı ilə ortaya çıxsın” deyə vurğulanır.

Onu da xatırladaq ki, bu yaxınlarda Samir Şərifov büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq hesabat almaq hüququndan məhrum edilib. Maliyyə Nazirliyinin həmin səlahiyyəti Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinə verilib.

İddialara görə, Şərifov yalnız öz nazirliyinin deyil, digər əlaqədar qurumların da BNA-da yoxlamalar, təftişlər, auditlər aparmasına bu və ya digər şəkildə mane olub. Lakin görünən odur ki, maliyyə nazirinin artıq Vüsal Kərimlini qorumaq, onun qanunsuzluqları üzərinə ”pərdə çəkmək” imkanı qalmayıb...

BNA-nın maliyyə nazirinin qeyri-rəsmi nəzarətindən çıxarılması həm də S.Şərifovun hökumətdəki mövqelərinin zəiflədiyinə, təsir gücünün azaldığına, nüfuz dairəsinin daraldığına işarədir. Maliyyə Nazirliyinin büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada aylıq hesabat almaq hüququndan məhrum edilməsi zamanı da yazdığımız kimi, Şərifov artıq tədricən ”portfel naziri”nə çevrilir. Proseslər belə davam edəcəyi təqdirdə biz çox keçmədən maliyyə nazirinin vəzifədən uzaqlaşdırılacağına da şahid ola bilərik.

*Sənan Mirzə*

# Milli Məclisin növbəti iclasının vaxtı və gündəliyi açıqlandı



*Milli Məclisin növbəti plenar iclasının vaxtı və gündəliyi açıqlanıb.*

”Unikal” xəbər verir ki, parlamentin aprelin 25-də keçiriləcək iclasının gündəliyinə 12 məsələ daxil edilib. Bunlar aşağıdakılardır:

1. İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında.
2. Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatı.
3. “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
4. Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
5. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
10. “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
11. “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
12. “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

# Spiker Varşavada “Naməlum əsgər” abidəsini ziyarət edib



*Milli Məclisin sədri Sahibə Qafarovanın Polşaya rəsmi səfəri davam edir. Azərbaycan parlamentinin rəhbəri səfər çərçivəsində paytaxt Varşavada “Naməlum əsgər” abidəsini ziyarət edib.*

Milli Məclisdən verilən xəbərə görə, Milli Məclisin sədri abidənin önünə əklil qoyub. Sonra Sahibə Qafarova xatirə kitabına ürək sözlərini yazıb.

Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti, həmçinin Varşava Üsyanı Muzeyi ilə də tanış olub.

# Orxan Yusibov direktor müavini təyin olundu

*Müdafiə Sənayesi Nazirliyinin ”Şərq” İstehsalat Birliyinə direktor müavini təyin olunub.*

”Unikal” xəbər verir ki, bu vəzifəyə Orxan Yusibov təyinat alıb. O bundan əvvəl “Azərbaycan Dəmir Yolları” QSC-də çalışıb.

Qeyd edək ki, 33 yaşlı O.Yusibov Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə ixtisası üzrə bakalavriat, İngiltərədə Eseks Universitetində (The University of Essex) Maliyyə və iqtisadiyyat ixtisası üzrə magistratura təhsili alıb.

# BNA-nın ləğvindən sonra nələr dəyişəcək? - Ekspertdən açıqlama



***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev "Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalayıb. Fərmana əsasən, Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edilməsi, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib.***

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin ona qoşulması formasında yenidən təşkil ediləcək.

"Unikal"ın məlumatına görə, nəqliyyat sahəsi üzrə ekspert Ərşad Hüseynov bildirib ki, Bakı Nəqliyyat Agentliyi ilə bağl Fərman gözlənilən idi. Onun sözlərinə görə, ölkədə mobillik, yol hərəkəti təhlükəsizliyi, yol-nəqliyyat infrastrukturu ilə bağlı vahid dövlət siyasəti, vahid institusional sistem, vahid prinsip və yanaşmalar, vahid nəzarət, ən başlıcası bu işlərə görə vahid cavabdehlik olmalıdır:

"Vahid yanaşma və prinsiplər əsasında konkret istiqamətlər üzrə çevik tənzimləmə, koordinasiyalı fəaliyyət, cari işlərin icrası ərazilər və sahələr üzrə şaxələnmiş altqurumlar tərəfindən həyata keçirilməlidir. Yaxın 3 ayda BNA ləğv ediləcək və onun səlahiyyətlərini bundan sonra həmin altqurumlardan biri həyata keçirəcək. Bundan sonra bəhs etdiyim vahidlik RİNN-in tabeliyində həyata keçirilməlidir. Bu hələ son deyil. Çünki Nəqliyyatı Əlaqələndirmə Şurası yaradılır. Bu Şura ölkəmizdə mobillik, yol-nəqliyyat infrastrukturu və yol hərəkəti təhlükəsizliyi sahəsində təkmilləşdirmə işləri, yəni, islahatla məşğul olmalıdır. Bu islahatlar nəticəsində dövrümüzün çağırışlarına uyğun institusional sistem qurulmalı, hər bir subyektin, xüsusən yerli icra hakimiyyətlərinin və bələdiyyələrin rolu müəyyən olunmalıdır.

Ən ağrılı məsələlərdən biri - ictimai nəqliyyatın gələcək inkişaf xətti müəyyən edilməlidir. Burada dövlətin və özəl sahibkarların yeri, rolu və payı aydın olmalıdır. İctimai nəqliyyatın inkişafı üçün dayanıqlı maliyyə mənbələri müəyyən edilməlidir. İctimai nəqliyyatın dayanıqlı, səmərəli inkişafı olmadan hər hansı uğurlu və müasir mobillikdən, yol hərəkəti təhlükəsizliyindən söhbət gedə bilməz".

***Seymur Əli***

# DYP-dən sürücülərə xəbərdarlıq




***DİN-in Baş Dövlət Yol Polisi İdarəsi qarşıdan gələn Ramazan bayramı ilə bağlı sürücülərə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir:

"Bayram günləri ilə əlaqədar qeyri-iş günlərində avtonəqliyyat vasitələrində səfərə çıxanların sayının əhəmiyyətli dərəcədə artacağını nəzərə alaraq, sürücü və sərnişinlərdən bir sıra qaydalara ciddi əməl etmələri xahiş olunur.

İlk növbədə səfərə hazırlaşan sürücülər bayram günlərində xoşagəlməz hadisələrin yaşanmaması üçün nəqliyyat vasitələrinin sazlığına diqqət yetirməli, hərəkət zamanı təhlükəsizlik kəmərini bağlamalı, sərnişinlər də bu qaydaya sözsüz əməl etməlidirlər. Dəyərli sürücülər, yorğun, yuxusuz halda sükün arxasına əyləşməkdən çəkinin, uzaq məsafə qət edərkən DYP-nin stasionar postlarında yaradılan şəraitdən istifadə etməklə qısa müddətli olsa da istirahət edin.

Unutmayın ki, sürət rejiminə, ötmə və manevr etmə qaydalarına ciddi riayət etmək, yol və hava şəraitini düzgün qiymətləndirmək həm özünüzün, sərnişinlərinizin, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyi üçün vacib şərtdir".

# Yeni məmur həbsləri gözlənilir

## 2022-ci ildə büdcə pullarını kimlər, necə havaya sovurublar? - Yarım milyardlıq maliyyə pozuntusu, 800 milyon manatlıq təhrif... və daha nələr, nələr!



***Bu günlərdə məlum oldu ki, 2022-ci ildə Hesablama Palatası apardığı uyğunluq auditləri hesabına, nə az, nə çox, düz 481,2 milyon manatlıq maliyyə pozuntusu aşkar edib. Həmin məbləğin təxminən üçdə biri - 131,3 milyon manatlıq hissəsi üzrə tədbirlər müəyyənləşib, 349,9 milyon manatlıq hissəsi üçün isə tədbir (bərpa) üçün əsaslar tapmaq mümkün olmayıb.***

Bundan başqa, 2022-ci ildə Hesablama Palatası apardığı nəzarət tədbirləri nəticəsində maliyyə hesabatlarında 2021-ci illə müqayisədə 21 % az - 797,8 milyon manatlıq təhrif aşkar edib. Qurumun hesabatından aydın olub ki, maliyyə hesabatlılığı sahəsində müəyyən edilən nöqsanları iki qrup üzrə təsnifləşdirmək mümkündür. 1-ci qrupa maliyyə hesabatlarında məlumatların əks etdirilməməsi halları kimi əhəmiyyətli təhriflər, 2-ci qrupa isə mühasibatlıq prinsiplərinə əməl edilməməsi, mühasibat yazılışlarının doğru verilməməsi nəticəsində məbləğlərin düzgün və müvafiq istiqamətdə əks olunmaması halları aid edilib.

Başqa bir ilginc detal: 2022-ci ildə Hesablama Palatası apardığı uyğunluq auditləri hesabına vurtut 16 qurumda nə az, nə çox, düz 36,7 milyon manatlıq səmərəsiz xərc aşkarlayıb!

Göründüyü kimi, maliyyə nöqsanlarına tuş gələn rəqəmlər kifayət qədər böyük məbləğləri əhatə edir. Və belə aydınlaşır ki, bir çox məmurlar hələ də büdcə vəsaitlərini şəffaf, təyinatı üzrə xərcləməyə, necə deyərlər, "can çəkirlər".

Xatırlatmaq artıqdır ki, son bir neçə ildə Azərbaycanda çox sayda yüksək vəzifəli şəxs qandallanıb. Güman etmək olardı ki, həmin həbslərdən digər məmurlar da lazımi nəticə çıxaracaq, qanunsuz əməllərdən çəkinəcəklər. Lakin reallıq bir çox vəzifə sahiblərinin hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işlədiyini göstərir. Yəni yenə də rüşvət, korrupsiya kimi cinayətlərə baş vururlar.

Halbuki ölkə başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, xalqın, dövlətin malına göz dikmək vicdansızlıqdır. Dövlət rəhbəri yeyintiyə, mənimsəməyə bulaşmış icra başçılarını nəzərdə tutaraq bir çıxışında belə demişdi: "İndi yaxşı, xalqdan qorxmursansa, Allahdan qorx. Belə şey etmək olarmı? Ona görə, bax, bu, onu göstərir ki, bu, məmurun mənəvi deqradasiyasıdır, bu, insanın mənəvi deqradasiyasıdır. Belə məmurlar bizə ləkədir, ölkəmizə ləkədir, iqtidara ləkədir. Hamı bilsin, eşitsin ki, belə hallara qarşı mübarizə daha ciddi aparılacaq. Hamı ibrət götürsün, dərs götürsün, hər kəs üçün dərs olsun. Dövlət məmuru olmaq istəyirsənsə, vicdanla xidmət et dövlətə. Yox sən dövlət vəzifəsinə gəlir mənbəyi kimi baxırsansa, heç getmə o vəzifəyə. Çünki bədbəxt olarsan. Bunu anlamayanlar, hesab edirəm, anlamalıdırlar ki, yeni dövrdə, yeni çağırışlar qarşısında olan ölkədə başqa cür ola da bilməz".

Ancaq bəzi məmurlar belə açıq mesajlardan da dərs almaq iqtidarında olmadıqlarını nümayiş etdirirlər. Nəticədə isə haqlı olaraq qandallanır, həbsə göndərilirlər.

Üstəlik, görünən odur ki, şanlı qələbəmizlə yekunlaşan Vətən müharibəsi də həmin vəzifə sahiblərini islah etmək üçün yetərli olmayıb. Buna nə ad verəsən? İnsan deməyə söz tapmır. Gözləmək olardı ki, məmurlar heç olmasa, işğaldakı torpaqlarımızın azad edilməsinə yönəlmiş son hərbi əməliyyatlardan ibrət alacaq, Azərbaycanın daha da güclənməsinə mane olan işlərdən uzaq dayanacaqlar. Məsələn, dövlət vəsaitlərini müxtəlif hiylələrlə, fəndlərlə öz ciblərinə yönəltməkdən əl çəkəcəklər. Nəhayət, başa düşəcəklər ki, büdcədən oğurlanan hər manat, hər qəpik əslində düşmən dəyirmanına su tökməkdir. Çünki bu pulların təyinatı nə olursa olsun - yol çəkmək, körpü tikmək, məktəb, xəstəxana inşa etmək və s. və i.a! - həmin vəsaitlər eyni zamanda həm də işğaldan azad edilən Qarabağın yenidən qurulmasına, abadlaşdırılmasına yönəlib. Məhz bunu nəzərə alıb anlamaq lazımdır ki, büdcə vəsaitlərini havaya sovurmaq, onları təyinatsız şəkildə, qeyri-şəffaf xərcləmək, özünə, ailə üzvlərinə biznes qurmaq üçün xərcləmək OLMAZ! Bu yalnız cinayət deyil, eyni zamanda Vətənə və Dövlətə xəyanətdir.

Lakin acınacaqlı haldır ki, bir sıra məmurlar belə bir sadə həqiqəti dərk və qəbul etməkdən uzaqdır.

Bu eyni zamanda o deməkdir ki, biz məmurların cinayət məsuliyyətinə cəlb olunması, qandallanması barədə xəbərləri hələ çox oxuyacağıq. Ta o vaxtacan ki, vəzifəli şəxslər "gözü çıxmış qardaşlarının" aqibətindən dərs alacaq, büdcə pullarını düzgün, şəffaf, təyinatı üzrə xərcləmək vərdişlərindən əl çəkəcək, oturduqları kresloya, sahib olduqları səlahiyyətlərə özlərini, ətraflarını varlandırmaq vasitəsi kimi baxmayacaqlar...

***Sənan Mirzə***

# Sabiq nazirin ən yaxın kadrı həbs oluna bilər

## Hesablama Palatasının Gəncə Regional Mədəniyyət idarəsinin sabiq rəisi Vasif Cənnətovla bağlı Dövlət Təhlükəsizlik Xidmətinə müraciət etməsinin sensasion təfərrüatları "Unikal"da!



***Gəncə Regional Mədəniyyət İdarəsinin sabiq rəisi Vasif Cənnətov həbs təhlükəsi ilə üzləşib. Buna səbəb idarədə aparılan yoxlamalar nəticəsində çoxsaylı korrupsiya hallarının aşkarlanmasıdır.***

"Unikal"ın məlumatına görə, həmin hallarla bağlı Dövlət Təhlükəsizlik Xidmətinə müraciət edilib.

Müraciət idarədə nəzarət tədbiri keçirən qurum - Hesablama Palatası tərəfindən göndərilib.

Xatırladaq ki, V.Cənnətov bu ilin yanvarında tutduğu vəzifədən azad edilib. Bununla bağlı həmin vaxt mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Adil Kərimli əmr imzalayıb. A.Kərimli bir neçə gün öncə nazir postuna təsdiqlənib.

Cənnətov 2021-ci ilin yanvarında sözügedən İdarənin rəisi təyin edilmişdi. Gəncə Regional Mədəniyyət İdarəsində keçirilən yoxlamaların böyük hissəsi isə məhz bu təyinatdan sonrakı dövrü əhatə edib. Daha dəqiq desək, 2020-2021-ci illərdə və 2022-ci ilin 6 ayı ərzində fəaliyyətini əhatə edən kənar dövlət maliyyə nəzarəti tədbiri zamanı isə müəyyənləşdirilib ki:

- proqnozlaşdırma prosesinə əsaslı yanaşılmaması və təsiredici amillərin diqqətə alınmaması, 2020-2021-ci illərdə pandemiya şəraitinin təsiri də nəzərə alınmaqla bir sıra xərclərin aşağı səviyyəli icra davranışına malik olduğunu göstərir. Aşağı icra davranışı nümayiş etdirən xərclərin əsas hissəsi kommunal, rabitə və poçt xidmətləri ilə bağlı olmuşdur ki, həmin istiqamətlər üzrə tələbatlara təsir edən faktorlar proqnozlaşdırılandır. Tikinti və avadanlıqların cari təmiri ilə bağlı xərclərdən isə hər iki ildə, demək olar ki, vəsait istifadə edilməyib;

- Büdcədənkənar fəaliyyətdən gəlirlərin formalaşması ilə bağlı tədbirlərin məhdud istiqamətlər və qurumlar üzrə həyata keçirilməsi, ümumilikdə auditin əhatə etdiyi dövrdə bu sahədə potensialın istifadəsi ilə bağlı fəaliyyətin tam və düzgün təşkil olunmaması İdarənin fəaliyyət çərçivəsində olan 323 mədəniyyət və incəsənət müəssisəsinin yalnız 8-dən cəmi 10,4 min vəsaitin daxil olması ilə nəticələnib;

- Əmlakla bağlı hesabatlılığın təmin olunması fonunda ondan istifadə prosesində əlavə gəlir əldə etmək potensialı reallaşdırılmayıb. Belə ki, İdarənin əhatəsində olan qurum tərəfindən düzgün olmayaraq dövlət əmlakının bir hissəsi ictimai birliyə istifadəyə verilmiş, həmin birlik tərəfindən bu sahə kommersiya məqsədi ilə istifadə edilsə də, əmlakdan istifadə ilə bağlı icarə müqaviləsi bağlanmamış və icarə haqqı tutulmayıb;

- Maliyyə intizamına tam əməl olunmaması bəzi hallarda ayrılmış vəsaitlərin İdarə tərəfindən təyinatı üzrə istifadə edilməməsi ilə nəticələnib;

- İdarənin tabeliyindəki 2 uşaq musiqi məktəbinə 7 ədəd elektron lövhə əvəzsiz verilərək sinif otaqlarında quraşdırılsa da, auditin başa çatdığı dövrədək lövhələrdən istifadə ilə bağlı bacarıqların aşılanmaması ümumilikdə 45,3 min manat dəyərində dövlət əmlakının istifadəsiz saxlanmasına səbəb olub, bununla da həmin avadanlıqların tədris prosesində tətbiqi yolu ilə tədris keyfiyyətinin yüksəldilməsi imkanlarından istifadə edilməyib.

- Əməyin ödənilməsi ilə bağlı vəsaitlərin istifadəsinin düzgünlüyünün yoxlanılması ilə Vahid Tarif-İxtisas Sorğu Kitabçaları ilə müəyyən edilmiş tarif dərəcələri və ixtisas tələblərinə əməl olunmayaraq tarif dərəcələrinin bəzi hallarda yuxarı, bir sıra hallarda isə aşağı müəyyənləşdirilməsi hallarına yol verildiyi aşkar edilib, həmin hallar əməyin müvafiq olaraq 18,3 min manat artıq və 277,8 min manat əskik ödənilməsi ilə nəticələnib.

- Tədris planlarında əks olunmuş normalara riayət edilmə vəziyyətinin araşdırılması bəzi hallarda əvvəlki dərs ilinin son aylarında qruplarda yeni şagirdlərin adının qeyd olunduğunu, bir sıra hallarda isə bunun yeni dərs ilinin əvvəlində həyata keçirilməklə qruplar formalaşdırıldıqdan qısa müddət sonra həmin uşaqların adının siyahıdan çıxarıldığını göstərib. Beləliklə də, göstərilən səbəblər 2019/2020-ci tədris ilində artırılmış 56 saat üzrə 15,5 min manat, 2020/2021-ci tədris ilində artırılmış 340 saat hesabına 132,6 min manat vəsaitin ödənilməsinə şərait yaradıb, 2021/2022-ci tədris ilinin auditin əhatə müddətinə düşən dövrü üçün bu göstəricilər müvafiq olaraq 166 saat və 58,3 min manat təşkil edib;

- 2020-ci illə müqayisədə 2021-ci ildə 653,5 min manat məbləğində azalmanın səbəbləri ilə bağlı toplanmış audit sübutları və həmin vəsaitin bir hissəsinin artıq ödənilmiş əməkhaqqı ilə bağlı olması ilə yanaşı, 447,1 min manatının 2020- ci ildə adları işdə olan, lakin 2021-ci ildə işdən azad edilmiş 87 nəfər işçinin əməkhaqqı və əməkhaqlarına üstəlik xərclərindən ibarət olduğu müəyyən edilib. 2021-ci ildə İdarədə 188 nəfər işdən azad edilmiş, 101 nəfər isə işə qəbul olunub. 87 ştat vahidi üzrə əməkdaşların eyni gündə işdən azad edildiyini və həmin vahidlər üzrə işə əməkdaşın götürülmədiyi, eləcə də bu ştat vahidlərinin bir hissəsinin artıq ştatlardan ibarət olduğu, həmin əməkdaşların faktiki olaraq çalışmama riskinin mövcudluğu aşkarlanıb;

- bəzi satınalmalar vaxtında icra edilməyib, planlaşdırılmış bir neçə satınalma həyata keçirilməyib və əksinə, nəzərdə tutulmamış satınalmalar icra olunub.

- Satınalınacaq mallara (işlərə və xidmətlərə) dair tələbin müəyyənləşdirilməməsi ilə yanaşı, ehtimal olunan qiymətlərin hesablanmaması və ya bu qiymətlərin formal xarakter daşıması bir sıra hallarda daha yüksək qiymətlərin tətbiqinə şərait yaratmaqla, dövlət vəsaitinin 64,4 min manat artıq istifadəsi ilə nəticələnib və s.

Göründüyü kimi, V.Cənnətovun Gəncə Regional Mədəniyyət İdarəsinə rəhbərlik etdiyi dövrdə bu qurumda saysız-hesabsız yeyinti, mənimsəmə hallarına yol verilib. "Unikal"ın əldə etdiyi məlumatda həmin halların bir çoxunun sonrakı dövrdə - 2022-ci ilin ikinci yarısında və 2023-cü ildə də davam etdirildiyi deyilir. Bütün bunları nəzərə alaraq, Hesablama Palatası DTX-yə müraciət etmək qərarına gəlib.

Xatırladaq ki, V.Cənnətov keçmiş mədəniyyət naziri Anar Kərimov tərəfindən bu vəzifəyə gətirilib və onun ən yaxın kadrlarından biri sayılıb. Maraqlı orasıdır ki, həmin posta təyin olunanadək Cənnətovun mədəniyyət sahəsində hər hansı iş təcrübəsi olmayıb. "Unikal"ın araşdırması zamanı aydınlaşıb ki, 1985-ci ildə Gəncə şəhərində anadan olan 38 yaşlı eks-rəis 2006-cı ildə Rusiyanın Maliyyə və Hüquq İnstitutunu "Hüquqşünas", 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasları üzrə bitirib. Əmək fəaliyyətinə isə 2007-ci ildə hüquqşünas kimi başlayıb. 2011-2018-ci illərdə Əmlak Məsələləri Dövlət Komitəsi sistemində müxtəlif vəzifələrdə çalışıb.

Son təyinatadək isə Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 3 saylı Gəncə Ərazi İdarəsinin Samux rayon şöbəsində şöbə müdiri vəzifəsində işləyib.

Bu əmək fəaliyyəti müqabilində onun ölkənin ikinci böyük şəhərini də əhatə edən böyük bir regionun mədəniyyət sahəsinə rəhbər təyin edilməsi təəccüblə qarşılanıb. Xüsusilə yerli sənət, mədəniyyət adamları üçün Cənnətovun təyinatı gözlənilməz olub.

Təyinatın nəticəsi isə gözlənilməz sayılmamalıdır - mədəniyyət sahəsinə yad kadrın 2 illik rəhbərliyi dövründə Gəncə Regional Mədəniyyət İdarəsində maliyyə nöqsanları baş alıb gedib...

***Sənan Mirzə***



# İnam Kərimov yeni layihəyə start verdi

***"Məhkəmələrin müasir tələblərlə uyğun qurulması, idarəetmədə innovativ texnologiyaların tətbiqi günün tələblərindəndir. Bu tələbləri qarşılamaq üçün məhkəmə-hüquq sisteminin bütün iştirakçıları ilə dialoq qurmağa xidmət edən yeni bir layihəyə - "Femida Dialoq Platforması" layihəsinə start vermişik".***

"Unikal" xəbər verir ki, bu sözləri Ali Məhkəmənin sədri İnam Kərimov Vəkillər Kollegiyası üzvləri ilə görüşdə deyib.

O bildirib ki, platformanın məqsədi hüquqşünaslar, hüquq müdafiəçiləri, vətəndaş cəmiyyəti institutları ilə fəal müzakirələrin təşkili, vətəndaşların hüquqi maarifləndirilməsinin artırılması, məhkəmə-hüquq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, problemlərin həlli və ölkəmizdə bu sahədə aparılan islahatlara dəstək verməkdir: "Femida Dialoq Platforması çərçivəsində ilk görüş Azərbaycan Vəkillər Kollegiyası ilə keçirilir. Bu gün biz vəkillərin üzləşdiyi problemlər və məhkəmə-hüquq sisteminin inkişafı istiqamətində təklifləri dinləyəcəyik. Düşünürəm ki, bu gün birgə uğurlu əməkdaşlığın əsasını qoyacağıq".

# Müəllimlərin yerdəyişməsi üzrə vakansiya seçimi başlayır

***Dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinin vakansiya seçimi mərhələsinə başlanılıb.***



Elm və Təhsil Nazirliyindən (ETN) "Unikal"a verilən xəbərə görə, müsabiqə qaydalarına əsasən iş yerinin dəyişdirilməsi üzrə vakansiya seçimi ilkin olaraq şəhid ailələrinin üzvləri üçün aktivləşdirilib.

Müsabiqə üzrə qeydiyyatdan keçmiş və elektron ərizəsi təsdiq olunmuş şəhid ailələrinin üzvləri 20 aprel saat 11:00-dan etibarən şəxsi səhifələrinə daxil olaraq müvafiq vakant yer seçimi edə bilərlər. İlkin vakansiya seçimi 25 aprel saat 11:00-dək davam edəcək. Növbəti mərhələdə isə digər müsabiqə iştirakçıları üçün vakansiya seçimi mərhələsi həyata keçiriləcək və bu barədə ictimaiyyətə əvvəlcədən məlumat veriləcək.

Vakansiya seçimi mərhələsində iştirak edəcək şəxslərə diqqətli olmaq və seçim etdikdən sonra elektron ərizələrini təsdiqləməyi unutmamaq tövsiyə edilib.

# DİN və DSX birgə əməliyyat keçirdi



***Daxili İşlər Nazirliyi (DİN) və Dövlət Sərhəd Xidməti (DSX) İmişlidə növbəti birgə əməliyyat keçirib, saxlanılan var.***

Bu barədə "Unikal"a DİN-in Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsi və DSX-nin əməkdaşları tərəfindən birgə keçirilən növbəti xüsusi əməliyyat nəticəsində qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə külli miqdarda narkotik maddələr keçirən daha bir nəfər saxlanılıb.

Tədbir zamanı paytaxt sakini Elməddin Hüseynov İmişli rayonu ərazisində tutulub. Bu şəxsdən ümumilikdə 14 kiloqram narkotik maddə olan qurudulmuş marixuana aşkar edilib.

İlkin sorğu zamanı Elməddin Hüseynov ondan aşkar olunmuş narkotik vasitəni İran İslam Respublikasının vətəndaşı "Baba" adı ilə tanıdığı şəxsin vasitəsilə İmişli rayonu ərazisində gizlədilən ünvandan müxtəlif yerlərə çatdırıb pul qazanmaq məqsədilə əldə etdiyini bildirib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində həbs qətimkan tədbiri seçilib, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, son 1 ay ərazində DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsi və DSX-nin əməkdaşlarının birgə həyata keçirdikləri xüsusi əməliyyatlar nəticəsində ümumilikdə 131 kiloqram müxtəlif növ güclü təsiredici xassəli narkotik vasitələr aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb.

# 4 saylı Təcili Tibbi Yardım Stansiyasında araşdırma aparıldı



***Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının 4 saylı bölməsinin sürücüsü Əzizov Mirəziz Mirabbas oğlu stansiyada baş verən neqativ hallarla bağlı yerində yoxlama və araşdırmanın aparılmasının təşkil olunması üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB) müraciət edib.***

Bu barədə "Unikal"ın sorğusuna TƏBİB-dən cavab verilib.

Sözügedən şəxsin şikayətləri nəzərə alınaraq onunla TƏBİB-də görüş keçirilib və narazılıq bildirdiyi məqamlar dinlənilərək qeydə alınıb, eyni zamanda araşdırılıb.

Qeyd edilən 4 saylı bölməyə baxış keçirilib, yerində araşdırma aparılıb. Heç bir əsaslı nöqsan aşkar edilməyib.

Bundan başqa, Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının rəhbərliyi tərəfindən şikayətdə adları çəkilən şəxslərin iştirakı ilə geniş tərkibdə iclas keçirilib, qeyd olunan iddiaların araşdırılması təmin edilib.

Hazırda TƏBİB-in Daxili nəzarət və monitorinq departamenti tərəfindən də məsələnin geniş araşdırılması həyata keçirilir.

Qeyd edək ki, Əzizov Mirəziz bu gün səhər saatlarında iş yerində problemlərlə bağlı qolunu kəsərək intihara cəhd etməyə çalışmışdı.

***Ağarza Elçinoğlu***

# FHN gücləndirilmiş iş rejimində çalışacaq




***Fövqəladə Hallar Nazirliyi (FHN) Ramazan bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.***

Bu barədə "Unikal"a FHN-in Mətbuat Xidmətindən məlumat verilib. Belə ki, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun bununla bağlı imzaladığı əmrə əsasən, Ramazan bayramı ilə əlaqədar qeyri-iş günlərində vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, insanların daha çox toplaşdığı məkanlarda, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması işinin təşkil edilməsi məqsədilə Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

# Ermənistan növbəti kapitulyasiya astanasında - Rusiyadan İrəvana tərs şillə

## Azərbaycandan son 3 ayda xaricə çıxan 109 milyon dolların pərdəarxası



Bir sözlə, buğda idxalı 2022-ci ilin 1-ci rübü ilə müqayisədə 2023-cü ilin 1-ci rübündə dəyər ifadəsilə 46 milyon 367 min dollar və ya 74%, miqdar ifadəsilə 173 min 283 ton və ya 95% artıb.

Beləliklə, açıq görünür ki, ərzaq təhlükəsizliyi baxımından strateji məhsul olan buğda sarıdan xaricdən asılılığımız artır. Bunun səbəbini isə bir neçə gün öncəki başqa bir açıqlamada axtarmaq lazımdır. Hesablama Palatası bildirmişdi ki, bitkiçiliyə ayrılan subsidiyalar buğda üzrə yerli istehsal göstəricilərinə müsbət təsir etməyib.

Bir az da konkretləşdirək:

1) Ölkə üzrə ümumi buğda əkini sahəsinin həcmi 2021-ci ildə 572 309 hektar olmaqla 2020-ci illə müqayisədə 16106 hektar və ya 2,7%, 2019-cu illə müqayisədə 97711 hektar və ya 14,6% azalıb;

2) İstehsal olunmuş buğdanın miqdarı 2021-ci ildə 1885,4 min ton təşkil edərək 2020-ci ilə nisbətən 18,1 min ton və ya 1,0% artsa da, 2019-cu illə müqayisədə 286,1 min ton və ya 13,2% azalıb;

3) Buğda idxalının həcmi 2021-ci ildə 1148,1 min tona bərabər olmaqla 2019-2020-ci illərlə müqayisədə, müvafiq olaraq 436,9 min ton və 217,0 min ton azalıb, lakin ölkədaxili tələbatın bir hissəsi ehtiyatların hesabına təmin edilməklə buğda statistik balansı üzrə ehtiyatın qalığı 62,3% azalıb;

4) Nəhayət, sadalananlar buğda əkininin subsidiyalaşdırılması üzrə inzibati tənzimlənmələrin 2020-ci və 2021-ci illərdə bu sahədə müsbət makroeffektlər yaratmadığını göstərib.

***Məmurlarla fermerlər arasında "pripiska" əməliyyatlarıg - Necə olur ki, taxılçılığa dövlət dəstəyi də artır, buğda sarıdan xaricdən asılılığımız da?!***

Yola salmaq üzrə olduğumuz həftə 2023-cü ilin ilk 3 ayı ərzində Azərbaycana 108 milyon 758 min dollar dəyərində 356 min 147 ton buğda idxal edilib. O da bildirilib ki, 2023-cü ilin ilk 3 ayında 1 ton buğdanın idxal qiyməti orta hesabla 305 dollar təşkil edib. Halbuki, ötən ilin ilk 3 ayında Azərbaycana 62 milyon 391 min dollar dəyərində 182 min 864 ton buğda idxal edilmişdi. Baxmayaraq ki, bir ton buğdanın orta hesabla idxal qiyməti 341 dollar təşkil etmişdi.

Düzdür, rəsmi qurumlar bunun səbəbini yalnız obyektiv səbəblərlə, məsələn torpaqların sənədləşdirilməsindəki problemlərlə izah etməyə çalışırlar. Lakin reallıq ortada başqa, subyektiv səbəblərin varlığından da danışmağı qaçılmaza çevirir.

Məsələn, müəyyən məmurların himayəsində olan MMC-lər, dövlət qurumlarının yaratdığı aqroparkların daha çox subsidiya almaq, həmin subsidiyanın əhəmiyyətli hissəsini isə təyinatsız şəkildə xərcləmək üçün əkin sahələrini süni şəkildə şişirdiyinə dair iddialar var. Məhz bu səbəbdən ekspertlər subsidiyaların əkin sahələrinin ölçüsünə görə yox, istehsal edilən məhsulun həcminə görə verilməsinə dair xeyli vaxtdır təkliflərlə çıxış edirlər.

Başqa bir iddiaya görə, yerli icra hakimiyyətləri ilə fermerlər arasında alınan subsidiyaların bölüşdürülməsi üçün qeyri-rəsmi anlaşma mövcuddur. Yəni, fermer şişirdilmiş rəqəmlərlə aldığı subsidiyanın bir hissəsini icra başçılarına ötürürlər. Beləcə, dövlətin aqrar sektora dəstəyi bu dəfə də kimlərinsə şəxsi maraqlarının "qurbanına" çevrilir.

Keçənlərdə iqtisadçı ekspertlərdən biri - Akif Nəsirli mətbuata açıqlamasında bildirmişdi ki, taxıl subsidiyasını əldə etmək üçün məmurlara yaxın sahibkarlar "pripiska" aparırlar. Sitat: "Yəni əkmədikləri əraziləri taxıl zəmiləri kimi qeydiyyatdan keçirirlər. Məsələn, 100-150 hektar, bəlkə də, daha çox ərazilər var ki, boşdur, rəqəmlərdə isə guya oradan taxıl biçilibg"

Mütəxəssislərin əksəriyyəti bir məsələdə həmfikirdirlər - aqrar sektorun subsidiyalaşdırılması sahəsində ən ciddi problem müvafiq dövlət qurumlarının şəffaflığa və hesabatlılığa əməl etməməsidir. Strukturuna daxil olan qurumlar tərəfindən büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi üzərində qanunvericiliyə uyğun nəzarəti həyata keçirməli olan Kənd Təsərrüfatı Nazirliyinin, eləcə də, vəzifəsi kənd təsərrüfatı istehsal vasitələrinə dövlət büdcəsi hesabına tətbiq edilən güzəştlərin verilməsini həyata keçirmək, həmin vəsaitin təyinatı üzrə istifadəsinə nəzarət etmək olan Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) saytlarında:

1) müvafiq subsidiya (əkin, məhsul, heyvan və sair) təyin olunmuş fermerlərin sayı;

2) imtina verilən fermerlərin ümumi müraciət edənlərin sayında xüsusi çəkisi,

3) imtinanın səbəblərinin təsnifləşdirilməsi;

4) subsidiya alan fermerlərin yekun sayında icarə münasibətlərində olanların xüsusi çəkisi;

5) subsidiya alan fermerlərin adı, soyadı, hər bir fermer üzrə subsidiyanın məbləği və digər detallı məlumata rast gəlmək mümkün deyil.

Bütün bunları nəzərə aldıqda bir yandan dövlətin taxılçılığa dəstəyinin artdığı halda o biri yandan buğda sarıdan xaricdən asılılığımızın artmasına təəccüblənməmək lazımdır.

Aydın görünür ki, dövlət üzərinə düşəni edir, lakin eyni sözü məsul şəxslər, cavabdeh vəzifə sahibləri, müvafiq hökumət qurumları haqqında söyləmək mümkün deyilg

***Toğrul Əliyev***

## 5.3.14. diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Düşmən öz simasını yenə göstərdi

## İsmayıl Ağayev: " Əsirlərimizə qarşı qeyri-insani rəftarla bağlı Beynəlxaq Diaspor Təşkilatı Çexiyada Beynəlxalq təşkilatlara, Avropa Parlamentinə müraciət edib"



***Ermənistanın hava şəraitinə görə yolunu azan iki hərbiçimizə işgəncə verməsi artıq beynəlxalq ictimaiyyət tərəfindən də qınanılmaqdadır. ABŞ Ermənistanda saxlanılan Azərbaycan əsgərinə qarşı törədilmiş zorakılıqla bağlı narahatçılığını bildirib. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyinin tvitində deyilir.***

"ABŞ məlum videoda əksini tapan Azərbaycan əsgərinə qarşı Ermənistanda törədilmiş zorakılığa görə çox narahatdır. Biz Azərbaycan və Ermənistanı bütün məsələləri sülh danışıqları yolu ilə həll etməyə çağırırıq". Zorakılıq anlarını əks etdirən videoya Britaniya və Avropa İttifaqının nümayəndələri də münasibət bildiriblər.

"Beynəlxalq humanitar hüquq qanunlarına görə bu cür rəftar yolverilməzdir, - Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld öz Twitter hesabında yazıb. - Regionda dayanıqlı sülhə nail olmaq üçün bu kimi hallar pislənməlidir". Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Michalko isə "həbsdə olan" Azərbaycan əsgərinə qarşı zorakılıq nümayiş etdirən videonun "acınacaqlı" olduğunu bildirib. "Bütün məhbuslarla beynəlxalq humanitar hüquqa uyğun davranılması vacibdir", - diplomatın tvitində deyilir.

"Ermənistanda azərbaycanlı əsgərə qarşı pis rəftarın videosu dərin narahatlıq doğurur və cavabdeh olanların beynəlxalq hüquq normalarına uyğun şəkildə məsuliyyətə cəlb olunmasına köməklik etməsi üçün hadisə dərhal araşdırılmalıdır" , - ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu bildirib.

Beynəlxalq ictimaiyyətin sərt qınağına tuş gələn düşmən iki azərbaycanlı əsgərlərdən biri Hüseyn Axundova cinayət işi açıb. Ermənistan Baş Prokurorluğu bəyanat yayıb ki, Hüseyn Axundov qətldə ittiham olunur. Daha əvvəl isə Naxçıvan istiqamətindən Ermənistan ərazisinə keçmiş iki Azərbaycan əsgərlərinə qarşı bir qrup şəxslərlə qabaqcadan sövdələşmə nəticəsində dövlət sərhədini qeyri-qanuni pozmaqda, qaçaqmalçılıq və qeyri-qanuni silah və hərbi sursat dövriyyəsində ittiham irəli sürülmüşdü. Aprelin 17-də Yerevan Birinci İnstansiya Məhkəməsi onların barəsində həbs qətimkan tədbiri qəbul edib.

Artıq erməni diasporunun nümayəndələri sosial şəbəkələrdə azərbaycanlı əsgərin qatil olduğu barədə təbliğat aparır.

Bəs görəsən bu halda Azərbaycan diasporu hansı addımlar atmalı, düşmənin əsl simasını beynəlxalq aləmdə faş etmək üçün hansı işlər görməlidir?

Beynəlxalq Diaspora Mərkəzinin sədri İsmayıl Ağayev "Unikal"a açıqlamasında bildirib ki, düşmənin əsgərimizə qarşı davranışını əks etdirən videosu onun əsl simasını, xislətini nümayiş etdirir. Həmsöhbətimiz deyir ki, onların yolunu azmış əsgərimizə qarşı fiziki güc tətbiq etməsi, alçaltması təsadüfi və birinci belə hadisə deyil. İ. Ağayev Ermənistanın daim əsirlərə qarşı qeyri-insani davranış nümayiş etdirdiyini söyləyib. Bildirib ki, hələ 1-ci Qarabağ müharibəsində də Ermənistan dövləti, hərbiçiləri əsir və girovlara qarşı amansız işgəncələr veriblər: "Biz bunu dəfələrlə beynəlxalq aləmə çatdırmışıq. Amma ikili standartlar nəticəsində Ermənistan bu əməllərinə görə qınanılmayıb. Nəticədə onlar bu gün də bu çirkin əməllərini davam etdirirlər".

İ.Ağayev deyir ki, ölkə başçısı da bu hadisəyə kəskin reaksiyasını verib. "Ermənistan dövlət olaraq öz imicini itirməkdədir. Biz mütəşəkkilliyimizi qorumalı Ermənistanın əsl simasını beynəlxalq aləmə göstərmək üçün bu istiqamətdə işlər görməliyik. Bu hadisə Azərbaycanda baş versəydi, dünya üstümüzə gələrdi. Ermənistana qarşı isə hələki lazımi cavab verilmir"deyə İ. Ağayev bildirib.

Onun sözlərinə görə, əsirlərimizə qarşı qeyri-insani rəftarla bağlı Beynəlxaq Diaspor Təşkilatı Çexiyada Beynəlxalq təşkilatlara, Avropa Parlamentinə müraciət edib. aİ. Ağayev onu da bildirdi ki, Belgiyada fəaliyyət göstərən diasporumuz isə BMT-ə bu barədə müraciət göndərib: " Həmin müraciətə məktubla yanaşı foto da əlavə olunub. Çox yaxşı olardı ki, xaricdəki bütün diaspor təşkilatları bu məsələdə fəallıq nümayiş etdirərdilər. Çünki, düşmən artıq öz çirkin simasını göstərib. Özləri əsirlərlə necə davrandıqlarını çəkib yayıblar. Bizə sadəcə bunu beynəlxalq aləmin diqqətinə çatdıraraq Ermənistanın insanlığa qarşı cinayətlər törətdiyini, beynəlxalq konvensiyaları pozduğunu göstərmək qalır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində yolu azaraq düşmən ərazisinə keçmiş və əsir götürülmüş Azərbaycan Ordusunun əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu hazırda düşmən əlindədir. Məlumat üçün bildirək ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə hərbi əsirlərin təzyiqlərə məruz qalmaması, tezliklə geri qaytarılması üçün operativ addımlar atılır. Ermənistan tərəfində aprelin 10-da bir nəfər azərbaycanlı əsgərin saxlandığına dair məlumatlar, videogörüntülər yayılmışdı. Daha sonra Ermənistan Müdafiə Nazirliyi Zəngəzur (Sünik) mahalının Bnunis kəndində bir azərbaycanlı əsgərin saxlanıldığını, digərinin isə qaçdığını bildirmişdi. Bir neçə gün öncə Ermənistan ərazisində itkin düşən ikinci azərbaycanlı əsgərin də saxlandığı barədə məlumat verilib. Məlumatdan az sonra bununla bağlı Ermənistan internet resurslarında videolar yayılıb. Yayılan videolarda əsgərin işgəncəyə məruz qaldığı, döyüldüyü aydın olub. Ermənistan tərəfi manipulyasiyaya əl ataraq iddia edib ki, guya, Zəngəzurdakı mis-molibden mədəninin ötən gün öldürülən mühafizəçisinin mobil telefonu əsgərimizin cibindən çıxıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Növbəti buraxılış imtahanları keçiriləcək

***Aprelin 30-da növbəti buraxılış imtahanları keçiriləcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib.

Qeyd olunub ki, aprelin 30-da Naxçıvan MR-də, Bakı şəhərinin Xəzər, Nizami, Pirallahı rayonlarında, Mingəçevir, Naftalan, Sumqayıt (II hissə), Şirvan, Yevlax şəhərlərində, Abşeron (II hissə), Ağstafa, Balakən, Bərdə, Cəlilabad (II hissə), Goranboy, Göyçay (II hissə), Xaçmaz (II hissə), İsmayıllı, Qax, Qazax, Quba (II hissə), Lerik, Masallı (II hissə), Salyan, Şamaxı, Tərtər, Ucar, Zaqatala rayonlarında, Bakı şəhərinin xüsusi ümumtəhsil müəssisələrində, eləcə də tədrisi ingilis, fransız və gürcü dillərində aparılan ümumtəhsil müəssisələrinin məzunları üçün Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçiriləcək.

Buraxılış imtahanında iştirak edəcək şagirdlər https://eservices.dim.gov.az/sagirdbv/ linkindən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər.

Şagirdlər iş nömrəsini buradan öyrənə bilərlər.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonda imtahan verirlər. Sumqayıt, Abşeron, Cəlilabad, Göyçay, Xaçmaz, Quba, Masallıda yerləşən məktəblərin şagirdlərinin imtahanı 2 imtahan gününə bölünüb. Bu hal yuxarıda müvafiq olaraq, "hissə" adlandırılıb və hiperlink qoyulub. Linkin üzərinə basdıqda aprelin 30-da hansı məktəblərin şagirdlərinin imtahan verməsi haqqında məlumat açılır.



# Şəhid Aqşinin Vətən sevgisi

***44 günlük Qarabağ müharibəsində canından artıq sevdiyi, müqəddəsliyinə tapındığı doğma Azərbaycanın ərazi bütövlüyü uğrunda qan tökən minlərlə şəhid igiddən biri də Aqşin Nazim oğlu İbadovdur. 1984-cu ildə Lənkəranın Boladi kəndində dünyaya göz açan bu, ürəyi sevdalı insan şərəfli bir ömür yaşadı. Şəhidliyi Vətən sevgisindən başlandığı üçün əbədi bir ömür qazandı. Fəqət, namərd düşmən gülləsinə tuş gəlsə də, torpağa gömülmədi, köç etdiyi yer könüllər oldu...***

Bəli, özünü dərk edən Aqşın ürəyində mənfur düşmənə kin, nifrət bəsləyir, hərbiçi olub ondan qisas almaq amal ilə orta məktəbi başa vurur. 2001-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur və 2005-ci ildə "Kəşfiyyat" ixtisası üzrə oranı bitirib, Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissdə canından artıq sevdiyi Vətəninə keşik çəkir. İllərin səfində Mingəçevirdə, Murovdağ istiqamətində, Gədəbəydə yerləşən ayrı-ayrı hərbi hissələrdə nümunəvi xidməti ona böyük ehtiram, sevgi gətirir. Doğma Azərbaycana dəyərli övlad olaraq ixtisası üzrə taqım, bir il sonra bölük komandiri və hərbi hissənin kəşfiyyat rəisi vəzifələrini vicdanla, şərəflə yerinə yetirir. Bütün bunlarla bərabər 2015-2018-ci illər arasında müxtəlif ölkələrin hərbçilərinin də qatıldığı kurslarda, seminarlarda iştirak edərək sertifikatlar, diplomlar, qiymətli hədiyyələr alır. Həmişə canına yağı dadanmış yurdunun taleyini düşünən Aqşin Hərbi Attaşe kursunu keçir, erməni dilini lazımı səviyyədə öyrənir. Həmçinin Ali Hərbi Akademiyanı mükəmməl biliklə bitirib, Türkiyədə İstanbul Milli Müdafiə Universitetində magistr təhsilini alır.

Həyatının dəyərini Vətəninə, xalqına təmənnasiz xidmətdə görən, halal torpağına ürəkdən bağlanan əsl Azərbaycan oğlu Aqşin İbadov bu müddətdə üçüncü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", " Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley, iki və üçüncü dərəcəli "Qüsursuz xidmətə görə" medallara layiq görülür. Bu, Vətən sevdalısı "Xilaskar" təxəllüsü ilə doğma Azərbaycanı, qəhrəmanlığı, saf sevgini tərənnüm edən şerlərdə yazırdı.

30 il erməni dığaların tapdağına dönənə əbədi, əzəli yurd yerimiz olan Qarabağ Aqşinin ən yararlı yeri idi. Və başa düşürdü ki, şəhid qanı axması, mənfur düşmən bu cənnət məkan yerləri qaytarmaz. Odur ki, İkinci Qarabağ müharibəsi başlanan gündən Vətənin harayına səs verən, ölümün gözünə dik baxan qeyrətli oğulların önündə yağı ilə savaşa səngərə gedən mayor Aqşin olur. Sinəsini qanar od edib dığaların kabusuna dönən mayor Füzulidə, Cəbrayılda, Zəngilanda, Xocavəndə, Kəlbəcərdə əsl qəhrəmanlıq göstərir. Ağır, qeyri-bərabər döyüşdə düşmənə sarsıdıcı zərbələr endirir, Vətən torpaqları qarşıqarış azad olunur. Tuğ kəndinin ərazisində adsız yüksəklik uğrunda gedən müharibədə dığalara göz aşmağa belə imkan vermir. 2020-cü ilin 19 oktyabr Aqşinin son döyüş günü olur. Xankəndi-Şuşa yolunun təmizlənməsi uğrunda gedən savaşda şəhid olsa da, yağıdan istədiyi qisası ala bilir.

Bütün Azərbaycan xalqının övladına çevrilən, qəhrəman adı dillərə düşən mayor Aqşin İbadov ölümündən sonra "Vətən uğrunda" , Cəbrayılın, Füzulinin, Kəlbəcərin azadlığına görə medallara layiq görülüb.

Onu da bildirək ki, Aqşinin özündən sonra xalqına əmanət qoyduğu Zeynəb adında qız övladı var. Artıq müqəddəs ruhu Vətən göylərində, ən uca zirvələrdə dolaşan atanın kimliyini dərk edir, onunla qürur duyur.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Təhlükəli xəstəliklərə tutulmuş heyvanlarla bağlı yeni qərar

***Heyvanların və əhalinin sağlamlığı üçün təhlükəli olan xəstəliklərə tutulmuş heyvanların, onlardan alınan məhsulların və xammalın təhlükəlilik dərəcəsindən asılı olaraq götürülməsi, məhv edilməsi və ya götürülmədən məcburi zərərsizləşdirilməsi, emalı və ya təkrar emalı Qaydalarına dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, Heyvanların və əhalinin sağlamlığı üçün təhlükəli olan xəstəliklər baş verdikdə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən "Baytarlıq haqqında" qanuna uyğun olaraq icrası məcburi olan qərarlar qəbul ediləcək və həmin qərarların icrası Azərbaycan Respublikasının Kənd TəsərrüfatıNazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən təmin ediləcək.

Bütün növ heyvanlar üçün ümumi olan xəstəliklərə yoluxmuş yüklərin məhv edilməsi prosesi Agentliyin qərarına əsasən "Baytarlıq haqqında" qanuna uyğun olaraq yerli icra hakimiyyəti orqanları tərəfindən xüsusi ayrılmış yerlərdə həyata keçiriləcək. Həmin xəstəliklər aşağıdakılardır:

**quduzluq;**
**dabaq;**
**qarayara;**
**tulyaremiya;**
**botulizm.**
**4.2. Qaramalın xəstəlikləri:**
**taun;**
**rinotraxeit;**
**kataral isitmə;**
**emfizematoz karbunkul.**
**4.3. Davarın xəstəlikləri:**
**skrepi;**
**bradzot-enterotoksemiya;**
**çiçək.**
**4.4. Donuzların xəstəliyi:**
**Afrika taunu.**
**4.5. Quşların xəstəliyi:**
**taun;**
**qamboro;**
**yüksək patogenli quş qripi;**
**ornitoz;**
**streptokokkoz.**
**4.6. Atların xəstəlikləri:**
**epizootik limfanqoit;**
**cütləşmə xəstəliyi;**
**Afrika taunu;**
**manqo;**
**saqqo.**
**4.7. Dəvələrin xəstəliyi:**
**taun.**
**4.8. İt və pişiklərin xəstəlikləri:**
**toksoplazmoz;**
**mikrosporiya.**

4.9. Dovşan, qunduz və vəhşi heyvanların xəstəlikləri:



**vərəm;**
**tulyaremiya;**
**miksomatoz;**
**streptokokkoz;**
**stafilokokkoz;**
**kaxeksiya;**
**trixinelyoz;**
**tetanus.**

Eyni zamanda qərara əsasən, Bruselyoz və vərəm xəstəliklərinə yoluxmuş yüklərin emalı və ya təkrar emalı Aqrar Xidmətlər Agentliyi və ixtisaslaşmış heyvan kəsimi və (və ya) emal müəssisələri ilə bağlanılmış müqavilə əsasında həyata keçirilir.

Bruselyoz və vərəm xəstəlikləri istisna olmaqla, bu Qaydaların 5-ci hissəsində göstərilən ( leykoz.

**5.2. Donuzların xəstəliyi:**
**taun.**
**5.3. Quşların xəstəlikləri:**
**infeksion larinqotraxeit;**
**infeksion bronxit;**
**çiçək;**
**pasterelyoz.**
**5.4. Atların xəstəliyi:**

yoluxucu ensefalomielit) xəstəliklərə yoluxmuş yüklərin götürülmədən məcburi zərərsizləşdirilməsi Aqrar Xidmətlər Agentliyi tərəfindən təmin edilir, emalı və ya təkrar emalı prosesi isə Agentliyin və Aqrar Xidmətlər Agentliyinin birgə iştirakı ilə yüklərin təhvil verildiyi heyvan kəsimi və (və ya) emal müəssisələri tərəfindən həyata keçiriləcək.

Qeyd edək ki, Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

-götürülmə - xəstəlik zamanı xəstə heyvanların, heyvan cəmdəklərinin və yaxud xəstə heyvanlardan alınan məhsul və xammalın xəstəlik mənbəyindən xüsusi ayrılmış yerə aparılması;

-məhvetmə - xəstəlik zamanı heyvan cəmdəklərinin və xəstə heyvanlardan alınan məhsul və xammalın kremasiya, basdırılma yolu ilə, habelə digər üsullarla zərərsizləşdirilməsi;

- məcburi zərərsizləşdirilmə - xarici mühit amillərinə davamlı olan və spor formasına keçə bilən xəstəlik amillərinin məhv edilməsi məqsədilə həmin xəstəliklərdən ölmüş və ya kəsilmiş heyvanların cəmdəklərinin kimyəvi məhlullarla işlənilməsi, habelə xəstəliklərlə sirayətlənmiş yerin bitki örtüyünün yandırılması və torpağın üst qatının kimyəvi məhlullarla işlənilməsi yolu ilə zərərsizləşdirilməsi.

Nazirlər Kabinetindən qərara verilən izahda bildirilib ki, Qərarların əsas məqsədi heyvan və insan sağlamlığı üçün xüsusi təhlükəli zoonoz xəstəliklərin, o cümlədən bruselyoz və vərəmin qarşısının alınması və aradan qaldırılması məqsədilə həmin xəstəliklərə tutulmuş heyvanların, eyni zamanda onlardan alınan məhsulların və xammalın təhlükəlilik dərəcəsindən asılı olaraq götürülməsi, məhv edilməsi, götürülmədən məcburi zərərsizləşdirilməsi, emalı və ya təkrar emalının təşkil edilməsi ilə hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi mexanizminin müəyyən edilməsindən ibarətdir.

Qərarların qüvvəyə minməsi ilə ölkədə təhlükəli heyvan xəstəliklərinin yayılmasının və yoluxma sayının azaldılması nəticəsində bu məqsəd üçün dövlət büdcəsindən ayrılan (ilk növbədə profilaktik peyvəndləmə üçün) vəsaitin azaldılması, ölkə ərazisinin heyvan xəstəliklərindən azad zonaya çevrilməsi, nəticədə heyvandarlıq məhsulları istehsalının artırılması və həmin məhsullar üzrə ixrac potensialının yüksəldilməsi gözlənilir.

# "AzInTelecom" Türkiyə şirkəti ilə müqavilə imzaladı

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "AzInTelecom" MMC təqdim etdiyi informasiya təhlükəsizliyi xidmətləri sahəsinin genişləndirilməsi məqsədilə Türkiyənin qabaqcıl texnologiya şirkətlərindən biri olan "Çekino Group" ilə əməkdaşlığa başlayıb.***

Tərəflər arasında keçirilən görüşdə "AzInTelecom"un İdarə Heyətinin sədri vəzifəsini icra edən Elxan Əzizov ilə "Çekino Group" şirkətinin baş direktoru Erol Yılmaz satış və əməkdaşlıq müqaviləsi imzalayıb.

Müqaviləyə əsasən, "Çekino Group"



şirkətinə məxsus olan və "AzInTelecom"un sistem əməliyyatlarının idarə edilməsində tətbiq edilən "Guardian" məhsulunun Azərbaycanda satışı və istifadəsini stimullaşdırmaq üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

E.Yılmaz bildirib ki, təhlükəsizlik və digər sahələr üzrə təklif etdikləri məhsul, xidmət və layihələr çərçivəsində müxtəlif ölkələrdə fəaliyyət göstərirlər. O, Azərbaycanda rəqəmsal transformasiya prinsipini mənimsəyən "AzInTelecom" ilə əməkdaşlıq sayəsində yaxşı nəticələr əldə edəcəklərinə inandığını qeyd edib.

Ölkənin bir sıra böyük şirkət və dövlət qurumlarının informasiya resurslarını etibar etdiyi "AzInTelecom"un müştəriləri informasiya təhlükəsizliyinin auditi, konsaltinqi və kibertəhlükəsizlik xidmətlərindən istifadə edə bilərlər.

# Suvarma sistemləri ilə bağlı tədbirlər görülür



***Göygöldə sel sularından mühafizə tədbirləri görülür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Göygöl Suvarma Sistemləri İdarəsi tərəfindən Göygöl rayonunda əkilən kənd təsərrüfatı təyinatlı bitkilərin suvarılması davam edir. Bu məqsədlə rayon ərazisində meliorativ tədbirlər uğurla həyata keçirilir.***

Torpaqların suvarma suyu ilə təminatı üçün 5 mənbədən, Kürəkçaydan, Gəncəçaydan, Qoşqarçaydan, mənbəyini Şəmkirçay gölündən götürən sağ sahil kanal vasitəsilə ötürülən suvarma suyundan və 296 ədəd subartezian quyusundan istifadə olunur. Hazırda hər biri saz vəziyyətdə olan subartezian quyuları əhatəsində olan əkin sahələrinin suvarılmasını təmin edir. İdarənin balansında olan 10 ədəd nasos stansiyası isə 1300 hektara yaxın torpaq sahəsinin suvarılmasına xidmət edir.

2022-ci ildə kanal və arxların lildən təmizlənməsi üzrə əl əməyi ilə və maşın mexanizmlərlə 685 min kub metr həcmində təmizləmə işləri görülüb. İdarə üzrə 35 ədəd hidrotexniki qurğu, 21 ədəd hidropost cari təmir edilib, həmçinin beton kanallarda 4 km-dək məsafədə cari təmir işləri görülərək başa çatdırılıb. Əsaslı təmir planına uyğun olaraq Xanlar kanalının bir hissəsi beton üzlüyə alınıb və işlər bu gün də davam etdirilir. Ərəbli kanalında isə bu işlər başa çatdırılıb. Bütün bunların nəticəsi olaraq suvarma suyunun əkin sahələrinə çatdırılmasında itkilərin qarşısı alınıb, kanallar vasitəsi ilə ötürülən suvarma suyunun itkisiz və qısa zaman kəsiyində əkin sahələrinə çatdırılması təmin edilib. Suvarma ilə yanaşı idarə tərəfindən rayon ərazisində sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində də müvafiq işlər görülür.

Qeyd edək ki, Göygöl Suvarma Sistemləri İdarəsi Göygöl rayonu ərazisində 1260 ha və Gəncə şəhər ərazisində 2590 ha olmaqla ümumilikdə 15210 ha əkin sahələrinin suvarılmasına xidmət edir.

Füzulidə 3 su anbarında təmir və bərpa işləri aparılır. Dilqəm Şərifov bildirib ki, 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızdakı su anbarlarlarında təmir və bərpa işlərinə başlanılıb. Füzuli rayonundakı 3 su anbarında da hazırda təmir və bərpa işləri aparılır. Füzuli rayonunun işğaldan azad edilmiş ərazisində Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarları mövcuddur. Köndələnçay-1 1951-ci ildə, Köndələnçay-2 1962-ci ildə, Aşağı Köndələnçay su anbarı isə 1980-cı ildə tikilib istismara verilib. Köndələnçay 1 və 2 su anbarları Aşağı Köndələnçay su anbarının qidalandırılması rolunu oynayır. 30 il baxımsız qaldığı üçün hər 3 anbar qəzalı vəziyyətə düşüb. Buna görə də anbarların suyu boşaldılıb, bəndlərdə, suburaxıcı qurğularda, sel ötürücü kanallarda təmir işləri həyata keçirilir. İşlər paralel olaraq hər 3 anbarda aparılır.

Köndələnçay-1 su anbarı 3.9 milyon kubmetr, Köndələnçay-2 su anbarı 2.1 milyon kubmetr, Aşağı Köndələnçay su anbarı isə 9.5 milyon kubmetr su tutumuna malikdir. Anbarların bərpası başa çatdıqdan sonra sudan Füzuli rayonunun həm işğaldan azad edilmiş, həm də işğal olunmamış kəndlərinin sakinləri yararlanacaq. Quruçay mövsümü gələn çay olduğu üçün daha çox yaz aylarında sel gəlir. Ona görə də üzərində qoruyucu bənd də tikilir, sipərlər yenilənir, suaşıran beton üzlüyə alınır və su təmizləyici qurğu da betonlanır. Çayda su anbara gedəcək səviyyədən çox olarsa bunun üçün əlavə suburaxıcı da quraşdırılır ki, onun vasitəsilə əlavə su çayın məcrasına ötürüləcək. Həm su anbarlarında, həm selötürücü kanallarda, həm də Quruçayda görülən təmir-bərpa işlərinin bu ilin oktyabr ayında başa çatdırılması nəzərdə tutulur.

Samuxda 30000 hektara yaxın əkin sahəsi suvarılır. Dilqəm Şərifov bildirib ki, Samux Suvarma Sistemləri İdarəsi rayon ərazisində yerləşən əkin sahələrinin suvarılmasını mütəşəkkil təşkil etmək üçün meliorativ tədbirlərini davam etdirir. Əkin sahələrinin suvarılması 727 km olan təsərrüfatdaxili və təsərrüfatlararası kanallar vasitəsilə aparılır. Bundan 65 km təsərrüfatlararası, 658 km-i isə təsərrüfatdaxili kanallardır. Kanallarda suyun maneəsiz ötrülməsi üçün əl ilə lildən təmizləmə, kol-kosun təmizlənməsi, boru xətlərinin və hidrotexniki qurğuların təmiri və betonlanma işlərinin aparılması cari və əsaslı təmir işləri həyata keçirilir.

Torpaqların suvarılması üçün rayon ərazisində olan bütün kəndlərin əkin sahələrinə xidmət edən təsərrüfatlararası və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri həyata keçirilir. Subartezian quyularında isə nasos və elektrik avadanlığı təmir edilir. Çaylardan gələn selin qarşısının alınması üçün cari il ərzində Gəncə çayında, Qabırrı çayında və Qoşqar çayında torpaq işləri görülüb. Hazırda kanallardan əkin sahələrinə suyun verilməsini təmin etmək üçün daim kanallara nəzarət olunur. Əlavə olaraq kanallarda əl ilə lildən təmizləmə işləri aparılır, boru kəmərləri təmir olunur. Hazırda kanallar tam işlək vəziyyətdədir.

Qeyd edək ki, Samux Suvarma Sistemləri İdarəsi rayonun 30000 hektara yaxın suvarılan torpaqlarına xidmət edir. Hazırda idarə tərəfindən yaz-yay suvarmasının mütəşəkkil olaraq yerinə yetirilməsi üçün meliorativ tədbirlər həyata keçirilir.

Yuxarı Şirvan Kanalda təmir işləri aparılır. Dilqəm Şərifov bildirib ki, 1958-ci ildə istismara verilən Yuxarı Şirvan Kanalı respublikanın ikinci ən böyük magistral suvarma kanalıdır. 1961-ci ildə kanalın ikinci hissəsi istismara verilib. Uzunluğu 122 km olan kanalın maksimum su sərfi 78 m3/saniyədir. Mənbəyini Mingəçevir su anbarından götürən kanal Kür çayının sol sahilindən keçməklə 150 min hektar əkin sahəsinin suvarılmasını təmin edir. Kanalın istismara verilməsi Şirvan düzündə öz axını ilə suvarılan sahələrin su ilə təmin olunmasına şərait yaradır. Kanaldan su ilə təmin olunan Yevlax, Ağdaş, Göyçay, Ucar, Kürdəmir, Ağsu, Zərdab, İsmayıllı, Hacıqabul və Şamaxı rayonlarının 150 min hektar torpaq sahələri suvarma suyu ilə təmin edilir. Kanalın istismarını həyata keçirən Yuxarı Şirvan Kanalı İstismarı İdarəsi tərəfindən hər il olduğu kimi bu il də təmir-bərpa işləri aparılır. hazırda görülən işlər sel sularının ötürülməsinə xidmət edir.

Yuxarı Şirvan Kanalı İstismarı İdarəsi tərəfindən bu ilin əvvəlindən etibarən torpaq məcrada 25 min m3 lildən təmizləmə işləri, çay məcralarında isə 30 min m3-ə yaxın tənzimləmə işləri aparılıb. İdarənin balansında olan 52 ədəd selötrücü və 36 ədəd suburaxıcının giriş və çıxış hissələrində əl ilə lildən təmizləmə işləri yerinə yetirilib. Hərəkəti boyu səkkiz çay üzərindən keçən kanalın hazırda Türyançayla kəsişməsində növbəti işlər həyata keçirilir. Belə ki, idarənin texnikaları vasitəsilə kanalın Ağdaş rayonu ərazisindən keçən hissəsində, torpaq bəndlərdə mühafizə tədbirləri aparılır.

Qeyd edək ki, Yuxarı Şirvan Kanalının üzərində Əliciançay, Türyançay, Göyçay, Girdimançay, Ağsuçay, Dəvəbətançay və Nəzriçayla kəsişdiyi yerlərdə mürəkkəb konsturuksiyalı 6 ədəd dükerlər və 2 ədəd akveduk tikilib. Ümumiyyətlə kanal üzərində sadə və mürəkkəb konusturuksiyalı 129 ədəd qurğu tikilib. Bunlardan 1 ədəd baş qurğu, 6 ədəd düker, 2 ədəd akveduk, 29 ədəd körpülər, 52 ədəd selötürücülər, 1 ədəd cəldaxıdan, 1 ədəd su tullayıcı, 1 ədəd səviyyə qaldıran, 36 ədəd suburaxıcı qapı və 1 ədəd qidalandırıcı kanalın normal iş rejmini təmin edirlər. Hazırda kanala 62 m3/san su götürülür və limit əsasında rayonların Suvarma Sistemləri İdarələrinə çatdırılır.

***Hüseyn İsgəndərov***



# DTX Akademiyasının magistraturasına qəbul qaydaları dəyişdi

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının magistraturalarına qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçəcəklər.***

"Unikal" xəbər verir ki, bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları" nda etdiyi dəyişiklikdə əksini tapıb.

İndiyə qədər sadəcə "ADA" Universitetinin, Moskva Dövlət Universitetinin Bakı filialının və Hərbi Elmi Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının magistraturalarına və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistraturasının tədrisi ingilis dilində olan "İdman jurnalistikası", "Menecment (idman sahəsi üzrə)", "İdman tibbi və reabilitasiya" ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçməli idilər.

Başqa sözlə, bu siyahıya Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası da əlavə edilib. Eyni zamanda qərara əsasən, Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda nəzərdə tutulduğu hallarda xüsusi təyinatlı ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq istəyən bakalavrlara ali təhsilin bakalavriat səviyyəsində aldıqları ixtisasdan asılı olmayaraq həmin ixtisaslaşmaları seçmək hüququ veriləcək.

# Abituriyentlərin nəzərinə - Yeni ixtisas yaradıldı

***Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı genişləndirilib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, XTB050109 Dövlət təhlükəsizliyi və idarəetmə ixtisası ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatına əlavə edilib.

## "Teğ kəndində 5 km-lik problemli yol var idi" - Paşinyan



**Teğ kəndində 11 km yolumuz var, bunun 5 km-ni problemli hesab etmişik.**

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı deyib.

"Bu günə kimi deyə bilərəm ki, bu problemli seqment daha 1,4 km azalıb. Bu o deməkdir ki, sərhəd tənzimlənib, bu o deməkdir ki, həm bizim, həm də azərbaycanlıların bu məsələdə ümumi fikri var", - deyə Paşinyan bildirib.

Baş nazir qalan 3,6 km-lik hissənin də düzəldiləcəyinə ümid etdiklərini bildirib.

***Ağarza Elçinoğlu***

## Zelenski Meksika Konqresində çıxış edəcək

***Ukrayna prezidenti Volodimir Zelenski Meksika Konqresinə müraciət edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" agentliyi məlumat yayıb.

Məlumata görə, müraciət videobağlantı vasitəsilə baş tutacaq.

"Ukrayna prezidentinin çıxışı bu günə planlaşdırılıb, mənbələr bildiriblər. Zelenskinin meksikalı konqresmenlər qarşısında çıxışı Meksika-Ukrayna dostluq fraksiyasının təşəbbüsü ilə baş tutacaq", - deyə qeyd olunub.

***Ağarza Elçinoğlu***

## Rusiyalı hərbçilər Ermənistanda təlim keçdilər



***Rusiyanın Cənub Hərbi Dairəsinin Ermənistandakı hərbi bazasının maddi-texniki təminat bölmələri təlim keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı Cənub Hərbi Dairəsinin Mətbuat xidməti yayıb.

Təlimlər "Alagəz" və "Kamxud" poliqonlarında baş tutub.

## Rusiyanın Sakit Okean Donanmasının komandanı istefa verdi

***Rusiya Sakit Okean Donanmasının komandanı Admiral Sergey Avakyants vəzifəsindən istefa verib.***

"Unikal" "Kommersant"a istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putinin Uzaq Şərq Federal Dairəsi üzrə nümayəndəsi Yuri Trutnev məlumat yayıb.

Qeyd olunur ki, Avakyants Rusiyanın hərbi idman hazırlığı və vətənpərvərlik tərbiyəsi mərkəzlərinə rəhbərlik edən qərargahın rəhbəri təyin olunub.

Qeyd edək ki, o, 2012-ci ilin mayında Sakit Okean Donanmasının komandanı təyin edilmişdi.

## Rusiyada mədəniyyət nazirinin müavini həbs edildi

***Rusiya mədəniyyət nazirinin müavini Olqa Yarilova həbs edilib.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Moskvanın Basmannı məhkəməsi vəzifə səlahiyyətlərindən sui-istifadə ilə bağlı cinayət işi üzrə saxlanılan nazir müavini barəsində həbs-qətimkan tədbiri seçib.

Məmur iyunun 16-dək paytaxtın istintaq təcridxanasına göndərilib. O, istintaqın tələbi ilə həbs edilib. Onun müdafiə tərəfi ev dustaqlığı istəyib, lakin məhkəmə bunu rədd edib.

***Ağarza***

# Ermənistan növbəti kapitulyasiya astanasında - Rusiyadan İrəvana tərs şillə



***Ermənistanın rus mediasında aşağılanması, riyakar və ikiüzlü siyasətinin tənqidi səngimək bilmir. Rəsmi İrəvanın Moskvadan uzaqlaşıb, Qərblə yaxınlaşmaq siyasəti nankorluq cəhdi kimi qiymətləndirilir. Belə götürəndə də haqlıdırlar. Məhz Rusiya Ermənistanın bir dövlət kimi formalaşmasında əvəzsiz rol oynayıb. Qafqazda görünmələrinə görə rus imperiyasına minnətdar olmalıdırlar - bu, tarixi reallıqdır. Rusiya "forpost dövlət" damğasını da elə-belə Ermənistanın alnına yapışdırmayıb. İndi isə Rusiyanın beynəlxalq aləmdə təkləndiyini görən ermənilər ondan üz döndərməyə çalışırlar. Nəticədə, Kreml öz təbliğat maşınını ermənilərə qarşı çevirməli olub.***

### "Ermənistana heç kim kömək etmədi"

"2020-ci ildə amerikalılar ermənilərə kömək etmədilər. Və Makron onlara mavi helikopterlə uçub pulsuz film nümayiş etdirmədi, almanlar da onlara tankla köməyə gəlmədi. Qonşu İran isə öz təhlükəsizliyini təmin etmək və mümkün əks-hücumları həyata keçirmək üçün yalnız ölkəsinin şimalına Ermənistan və Azərbaycan sərhədlərinə yaxın bir neçə zərbə birləşməsini köçürdü. Bir sözlə, Ermənistana heç kim kömək etməyib. Bu səbəbdən də Azərbaycan ordusuna qarşı tamamilə tək qaldılar". Bu fikirlər Rusiyanın nüfuzlu "Russkaya vesna" nəşrindədir.

Müəllif yazır ki, Azərbaycan 30 il öz ərazilərinin qaytarılmasına hazırlaşıb. Ordusunu müasirləşdirib, nisbətən yeni silahlar alıb, döyüş taktikasını öyrəniblər: "Və ikinci Ermənistan-Azərbaycan müharibəsi başlayanda Azərbaycan ordusu bu müharibə zamanı çox səmərəli fəaliyyət göstərdi. Azərbaycanlılar əvvəllər Ermənistan tərəfindən işğal olunmuş bütün əraziləri azad etdilər və öz növbəsində Qarabağı blokadaya aldılar. Paşinyan təcili atəşkəsə kömək etmək xahişi ilə nifrət etdiyi Rusiyaya istənilən şərtlə sülh sazişi üçün müraciət etdi. Nəticədə, Azərbaycan razılaşmanı imzaladı və Bakıda müharibənin qalibiyyətlə başa çatması kimi qiymətləndirildi".

### "Sorosdan yemlənən Nikol Paşinyan"

Müəllif onu da qeyd edir ki, bu yaxınlarda hərbi əməliyyatların yenidən başlaması göstərdi ki, Ermənistan tək qalıb. Nə İran, nə də Rusiya onun suverenliyinin təminatçısıdır. "Sorosdan yemlənən Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı son qalmaqallı bəyanatı Azərbaycanın de-fakto qələbəsini, Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımağa gecikmiş cəhddir. Nikol Paşinyanın Ermənistanın ərazi bütövlüyünün Azərbaycan tərəfindən eyni vaxtda tanınması təklifi indiki güclü Azərbaycan üçün lazım deyil və sərfəli deyil. Paşinyanın kapitulyasiya bəyanatından sonra Qarabağ məsələsi Azərbaycanın daxili işinə çevrilir.

### Zəngəzur dəhlizi - Azərbaycan üçün bu, strateji əhəmiyyətli məsələdir

Məqalədə qeyd edilir ki, Azərbaycanın hələ də ikinci ərazi problemi var - Ermənistanın indiki Sünik rayonunun ərazisindən keçməli olan "Zəngəzur dəhlizi". Azərbaycan üçün bu, strateji əhəmiyyətli məsələdir - Naxçıvan anklavına və Türkiyəyə nəqliyyat dəhlizinin yaradılması, Naxçıvanın daimi potensial blokada təhlükəsinin aradan qaldırılması və müttəfiq dövlətlər üçün vahid hərbi, ticarət, sənaye və nəqliyyat dəhlizinin yaradılması deməkdir: "Azərbaycan Prezidenti İlham Əliyev iki il əvvəl Ermənistandan könüllü olaraq "Zəngəzur dəhlizi"ni təşkil etməyi tələb etdi, sonra Ermənistan bu təklifi rədd etdi, lakin Azərbaycanın özündə də bunu heç kim gündəmdən çıxarmadı. Ermənistanın Sünik bölgəsi az məskunlaşan dağlıq rayondur, yol şəbəkəsi az inkişaf edir, ümumiyyətlə, qonşu Qarabağda olduğu kimi eyni əməliyyat teatrıdır".

Məqalə müəllifi sonda bir ideya irəli sürüb. "Əminəm ki, indinin özündə də Azərbaycanın Baş Qərargahında qalib generallar Azərbaycandan Qərbə, Naxçıvandan isə Şərqə yeni hücum planlaşdırırlar və Azərbaycanın siyasi rəhbərliyi, sadəcə olaraq, sakitcə gözləyəcək ki, Ermənistan təkbaşına qalsın. Azərbaycana təkcə Qarabağ üzərində suverenlik deyil, həm də Zəngəzur dəhlizi təklif etmək məcburiyyətində qalacaqlar. Ermənistana nə amerikalılar, nə də avropalılar kömək etməyib və etməyəcək. Bugünkü Ermənistana ancaq Rusiya və İran hansısa şəkildə kömək edə bilər, lakin bunun üçün erməni xalqına siyasi ayıqlıq və İrəvanda hakimiyyət dəyişikliyi lazımdır, əks halda fəlakət təkcə Qarabağı deyil, bütövlükdə Ermənistanı təhdid etmiş olacaq", - deyə müəllif fikrini tamamlayıb.

# Azərbaycan yığması Avropa çempionu oldu



***Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Avropa çempionatında sərbəst güləş üzrə mübarizəyə yekun vurulub.***

Millimiz qitə birinciliyində 2 qızıl, 2 gümüş və 2 bürünc olmaqla, 6 medal qazanıb. Bu nəticələrlə komandamız 150 xal toplayaraq Avropa çempionu olub.

Gürcüstan (137) ikinci, Türkiyə (115) isə üçüncü yeri tutub. Bu, sərbəst güləş üzrə yığmamızın ardıcıl 2-ci, ümumilikdə isə 4-cü Avropa çempionluğu olub.

Komandamız medalların əyarına görə də bütün ölkələri qabaqlayıb. Millimiz həm də bu göstəricidə özünün son 4 ildə ən yaxşı nəticəsinə imza atıb.

Qeyd edək ki, milli üzvlərindən Əliabbas Rzazadə (57 kq) və Hacı Əliyev (70 kq) Avropa çempionu olub. Osman Nurmaqomedovla (92 kq) Maqomedxan Maqomedov (97 kq) gümüş, Abubakr Abakarov (86 kq) və Georgi Meşvildişvili (125 kq) isə bürünc medal qazanıb.

# Kross qaçışı üzrə Azərbaycan yaz çempionatı



***Gənclər və İdman Nazirliyinin, Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə Kross qaçışı üzrə Azərbaycan yaz çempionatı keçirilib.***

Lənkəran Olimpiya İdman Kompleksində baş tutan möhtəşəm idman tədbirinin rəsmi hissəsində ön sözlə çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Federasiyanın yeni rəhbərliyinin fəaliyyətinə uğurlar arzulayaraq bildirib ki, , bölgələrdə kütləvi idman yarışlarının keçirilməsi gənc nəslin sağlam ruhda böyüməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu idman siyasəti bu gün cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən layiqincə davam etdirilir, ən əsası bu sahəyə xüsusi diqqət göstərilməsi dövlətin prioritet məsələsi hesab olunur.

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, Azərbaycan Atletika Federasiyası İctimai Birliyinin Prezidenti Cavid Qurbanov çıxışında deyib: - "Heydər Əliyev İli" çərçivəsində baş tutan kütləvi idman tədbiri gənclərin idmana olan marağına bir maraqda qatır. Keçirilən yarışlar idmançıların dərəcələrini daha da artması, beynəlxalq yarışlarda iştiraka vəsiqə qazanması, eləcə bütövlükdə bölgələrdə idmanın inkişafı və gənclərin idmana təşviqi baxımından böyük önəm kəsb edir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin sektor müdiri Sevda Mirzəyeva isə yarış iştirakçılarına uğurlar və güclünün qalib olmasını arzulayıb.

Azərbaycan Respublikasının Dövlət Himni oxunub, sonra iştirakçılar və hakimlər yarış məkanına yola düşüblər. Yarışa 11 komanda( Bakı, Naxçıvan, Gəncə, Bərdə, İsmayıllı, Xızı, Lənkəran, Astara, Təhsil - RİM, Təhsil 1 və Təhsil 5) və 170 idmançı qatılıb. Yarışı izləməyə gələnlər olduqca maraqlı bir idman yarışın şahidi olublar.

Yekunda qaliblər medal, Azərbaycan Atletika Federasiyasının, Gənclər və İdman Nazirliyinin hədiyyələri, həm də pul mükafatları ilə təltif ediliblər.

***Zəfər Orucoğlu, AJB üzvü***

## Mahirdən ilk qolla bağlı paylaşım - "Çox söz deyərdik..."

***Azərbaycan millisinin hücumçusu Mahir Emreli Türkiyə Super Liqasında vurduğu ilk qolla bağlı paylaşım edib.***

«Konyaspor"un hücumçusu 29-cu turda evdə "Adana Demirspor"la matçdan sonra instaqram hesabında bunları yazıb: "Çox söz deyərdik, amma boş verin. Dəstəkləyən hər kəsə təşəkkür edirik".

Qeyd edək ki, Mahir 40-cı dəqiqədə gözəl qola imza atıb. Bu, onun Super Liqada və "Konyaspor"da ilk rəsmi qolu olub.

Emreli 60-cı dəqiqədə əvəzlənib. Onun komandası isə 1:2 hesabı ilə uduzub.

## Avroliqada 1/4 finalın cavab oyunları başlayır

***Avropa Liqasında 1/4 finalın cavab oyununa start veriləcək.***

Turun bütün matçları eyni gündə keçiriləcək. "Roma" "Feyenoord"u, "Sevilya" "Mançester Yunayted"i, "Sportinq" "Yuventus"u, "Union" "Bayer"i qəbul edəcək.

Qeyd edək ki, yarımfinalda "Roma" - "Feyenoord" / "Union" - "Bayer", "Sportinq" - "Yuventus" / "Sevilya" - "Mançester Yunayted" cütünün qalibləri qarşılaşacaqlar.

**20 aprel**

23:00. "Roma" (İtaliya) - "Feyenoord" (Niderland)
oyun - 0:1

23:00. "Sevilya" (İspaniya) - "Mançester Yunayted" (İngiltərə)
İlk oyun - 2:2
23:00. "Sportinq" (Portuqaliya) - "Yuventus" (İtaliya)
İlk oyun - 0:1
23:00. "Union" (Belçika) - "Bayer" (Almaniya)
İlk oyun - 1:1

## AFFA "Neftçi"nin prezidentini cəzalandırdı

***AFFA İntizam Komitəsi "Neftçi"nin prezidenti Kamran Quliyevi cəzalandırıb.***

"Unikal" xəbər verir ki, buna səbəb klub rəhbərinin Azərbaycan Kubokunun yarımfinal mərhələsinin "Turan Tovuz"la səfər matçının fasiləsi zamanı stadionun tunelinə daxil olaraq, rəsmi şəxslərə qarşı işlətdiyi ifadələr olub.

Buna görə, Kamran Quliyev Azərbaycan Kubokunda 3-ü şərti olmaqla 5 oyunluq cəzalandırılıb, klubu 4000 manat ziyana salıb. Ona 6 aylıq sınaq müddəti təyin edilib.

Görüşdə 4 futbolçusu sarı vərəqə alan "Turan Tovuz" isə 800 manat cərimələnib.

Qeyd edək ki, "Turan Tovuz" - "Neftçi" qarşılaşması meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

## ÇL-də həftənin ən yaxşı futbolçusu kim olacaq?

***Çempionlar Liqasında bu həftənin ən yaxşı futbolçusu adına namizədlər müəyyənləşib.***

Qol.az xəbər verir ki, namizədlər sırasında Rafael Leau ("Milan"), Federiko Valverde ("Real"), Kevin De Brüyne ("Mançester Siti"), Lautaro Martines ("İnter") yer alıb.

Azarkeşlər UEFA-nın saytında keçirilən səsvermədə iştirak edərək qalibi müəyyənləşdirəcəklər.

## "İnter"dən 12 illik uğursuzluğa son

***"İnter" Çempionlar Liqasındakı uğursuzluğa son qoyub.***

Apasport.az saytı xəbər verir ki, İtaliya klubu 12 ildən sonra qitənin ən möhtəşəm klub turnirinin yarımfinalına yüksəlib.

2010-cu ildən 1/4 final səddini uğurla adlayan Milan təmsilçisi həmin il Çempionlar Liqasının kubokunu da başı üzərinə qaldırıb. Joze Maurinyonun rəhbərlik etdiyi "İnter" həlledici matçda "Bavariya"ya 2:0 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, "neradzurri" 1/4 finalda Portuqaliya "Benfika"sını mübarizədən kənarlaşdırıb - (2:0 və 3:3). Komandanı yarımfinalda isə Milan dərbisi gözləyir. "İnter" və "Milan" arasındakı matçlar mayın 9-da və 17-də keçiriləcək.